**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ERMƏNİSTAN RESPUBLİKASI-İRAN İSLAM RESPUBLİKASI MÜNASİBƏTLƏRİ: QURULMASI, MÖVCUD VƏZİYYƏTİ VƏ PROBLEMLƏRİ

İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Elnur Həşim oğlu Kəlbizadə**

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi AMEA Hüquq və İnsan Haqları İnstitutunun Beynəlxalq münasibətlər və insan hüquqları şöbəsində və Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
**Musa Cəfər oğlu Qasımlı**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Hicran Kamran qızı Hüseynova**

siyasi elmlər doktoru, professor
**Aida Məmməd qızı Yusifzadə**

siyasi elmlər doktoru, dosent
**Hikmət Baba oğlu Məmmədov**

siyasi elmlər doktoru, dosent
**Kənan Hüseyn oğlu Allahverdiyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən Dissertasiya Şurasının bazasında yaradılan BED 2.30/1 Birdəfəlik Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: __________ Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: __________ siyasi elmlər doktoru, professor
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: __________ siyasi elmlər doktoru, professor
**Elman Xudam oğlu Nəsirov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**: Digər SSRİ respublikaları kimi 1991-ci ildə dövlət müstəqilliyinin bərpasını elan edən Ermənistanla Yaxın Şərq geosiyasətində özünəməxsus rolu olan İran İslam Respublikası arasında münasibətlərin tədqiqi bir neçə cəhətdən aktualdır.

İki dövlət arasında münasibətlərin qurulması, mövcud vəziyyəti və problemlərinin öyrənilməsi qlobal səviyyədə ona görə aktualdır ki, hər iki ölkənin yerləşdiyi ərazi talassokratiya (dəniz gücü) və tellurokratiyanı (torpaq gücü) təmsil edən dövlətlər arasında aralıq sahəni təşkil edir. Bəzi tədqiqatçıların fikrincə ABŞ-Birləşmiş Krallıq koalisiyası ilə Rusiya-Çin ittifaqı arasında mübarizənin taleyi məhz bu aralıq sahədə həll olunacaqdır. Rusiyanın təsirlərinin azalması fonunda əzəli geosiyasi rəqibi olan Birləşmiş Krallığın bölgədə nüfuzunun artması ilə barışmayan Fransanın Cənubi Qafqazda tamamilə fərqli məqsədləri, Ermənistan və İran üzərində təsirləri vardır. Bu baxımdan region dövlətləri, o cümlədən Ermənistan və İran arasındakı münasibətlərə sadəcə olaraq beynəlxalq siyasi sistemin iki aktoru arasında əlaqələr kimi baxmaq olmaz. Hər iki dövlətin üzərində müxtəlif güc mərkəzlərinin təsirləri vardır. Bütün bunları nəzərə aldıqda Ermənistanla İran arasında münasibətləri şərtləndirən amillərin araşdırılması, əlaqələrin hazırkı səviyyəsinin və problemlərinin tədqiqi güc mərkəzləri arasında regionda gedən mübarizənin mahiyyətini başa düşməyə, gələcək inkişaf ssenarilərini modelləşdirməyə və proqnozlaşdırmağa imkan verər.

Mövzunun regional səviyyədə aktuallığı onunla müəyyənləşir ki, Qafqazda sülhün və təhlükəsizliyin təmin olunması üçün hazırki şəraitdə regional bloklaşma meyillərinin xarakteri və istiqamətləri dəqiqləşdirilməlidir. İİR-in milli və təhlükəsizlik maraqları, bu maraqların təmin olunmasında Ermənistanın yerinin elmi metodoloji təhlillər və faktlar əsasında qiymətləndirilməsi praktik siyasətdə müəyyən dəyişikliklərə gətirib çıxara bilər. İİR-in Qafqazda nəinki siyasi və iqtisadi, həm də təhlükəsizlik maraqları vardır. Dünyanın siyasi səhnəsində özünəməxsus quruluşu və xarici siyasət konsepsiyası ilə fərqlənməsi bu ölkənin Cənubi Qafqaz dövlətləri

ilə bağlı siyasətinin fərdi olaraq araşdırılmasını zəruri edir.

Azərbaycan Respublikasının milli və dövlət mənafeləri baxımından da Ermənistan-İran münasibətlərinin qurulması, mövcud vəziyyəti və problemlərinin tədqiqi aktualdır. Həm İranın, həm Ermənistanın Azərbaycan Respublikası ilə fiziki sərhədləri, kəsişən və ya toqquşan maraqları mövcuddur. Deməli, bu münasibətlər Azərbaycan Respublikasına birbaşa və dolayı yollarla təsir edir. Uzun illər ərzində Azərbaycan Respublikası ərazilərinin 20 faizini işğal altında saxlamış, 2020-ci ildə isə 44 günlük müharibədə ağır məğlubiyyətə uğramış Ermənistanla İranın münasibətləri özünəməxsus cəhətləri ilə fərqlənir.

Ortaq tarixi keçmişi, oxşar adət-ənənələri, eyni dinə mənsubluğu nəzərə alan Azərbaycan Respublikası müxtəlif dövrlərdə İİR-in işğalçı Ermənistana verdiyi siyasi və iqtisadi dəstəkdən narahatlığını və narazılığını ifadə etmişdir. Müsəlmanlara qarşı qətliamlar və soyqırımlar törətmiş, işğal etdiyi ərazilərdə, eləcə də öz rəsmi sərhədləri daxilində müsəlman tarixi abidələrinə qarşı vandalizm siyasəti yürüdən bir dövlətlə İslam Respublikasının sıx münasibətlər qurmasının İranın xarici siyasətində elan etdiyi prinsiplərə zidd olduğunu Azərbaycan dövləti dəfələrlə bəyan etmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev İran dövlətinin rəsmi nümayəndələrinə müraciətində bu barədə demişdir:

*"İran–Azərbaycan əlaqələrini İran–Ermənistan əlaqələri ilə bərabərləşdirmək olmaz. Çünki bizim ölkələrimizi, xalqlarımızı bir-birinə bağlayan böyük tarixdir, bizim tarixi köklərimizdir, bizim müştərək mədəniyyətimizdir, adət-ənənələrimizdir, bizim bir dinə mənsub olmağımızdır. Amma Ermənistanla sizin yəqin ki, ancaq iqtisadi əlaqələriniz var. Ona görə rica edərdim ki, bu əlaqələrə eyni gözlə baxmayasınız".*[1]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə Ermənistanın müsəlman dövlətlərinə və İrana münasibətdə qeyri-səmimi olduğunu, gizli təxribatçı fəaliyyətlər yürütdüyünü nəzərdə tutaraq demişdir: *"...Erməni rəsmiləri Avropada olarkən əsas arqument o olur ki, biz müsəlmanların əhatəsində yaşayırıq. Bizim üç*

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. –Bakı: Azərnəşr, –2011. –c. 38. –s. 58.

*qonşumuz müsəlman ölkələridir. Ancaq İranla əlaqələrində həmişə riyakarcasına dostluq haqqında danışırlar”.*[2]

Mövzunun aktuallığını həmçinin hazırda Cənubi Qafqazda formalaşmaqda olan yeni geosiyasi konfiqurasiya müəyyən edir. Məlumdur ki, 30 ilə yaxın müddətdə Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxlaması İran üçün bir tərəfdən təhlükəsizlik təhdidləri yaratmış, digər tərəfdən bu ölkənin Ermənistan üzərində siyasi və iqtisadi təsirini gücləndirməkdən ötrü vasitə rolunu oynamışdır. 2020-ci ilin sentyabr-noyabr aylarında Azərbaycanla Ermənistan arasında baş verən müharibə ərazilərin işğaldan azad edilməsinə, İran-Azərbaycan sərhədi üzərində tam nəzarətin bərpa olunmasına, bölgədə kommunikasiya xətlərinin açılması və yeni əməkdaşlıq platforması ilə bağlı təkliflərin meydana çıxmasına səbəb olmuşdur. Bölgədə yeni geosiyasi quruluş formalaşmaqdadır. Bu vəziyyətin ER-İİR münasibətlərində hansı dəyişikliklərə səbəb ola biləcəyi, iki ölkəyə hansı təhdidlər və fürsətlər yaradacağı aydınlaşdırılmalıdır. Yaranmış şəraitdə bu dövlətlərin hansı addımları ata biləcəyi, birgə fəaliyyət imkanlarının elmi-metodoloji prinsiplər əsasında proqnozlaşdırılması həm bölgədə sülh, təhlükəsizlik və əməkdaşlıq üçün, həm də Azərbaycanın xarici siyasəti üçün əhəmiyyətlidir.

Bütün yuxarıda qeyd olunanları nəzərə alsaq, Ermənistan-İran münasibətlərinin tədqiqi Cənubi Qafqazda mübarizə aparan regional və qlobal oyunçuların siyasətlərinin mahiyyətinin də aydın şəkildə anlaşılmasına imkan verər. Münasibətlərin formalaşmasına təsir edən amillərin müəyyən edilməsi, İranın islam dövləti olmasına və özünü bütün dünya müsəlmanlarının himayədarı olaraq təqdim etməsinə baxmayaraq Ermənistanla sıx əməkdaşlığının səbəblərinin aydınlaşdırılması, ikitərəfli münasibətlərdə problemli məqamların üzə çıxarılması uyğun və qabaqlayıcı siyasətin müəyyənləşdirilməsi baxımından zəruridir.

Mövzu hər iki dövlətlə həmsərhəd olan Azərbaycan Respublikasında alim, tədqiqatçı və politoloqların diqqətini daim cəlb etmişdir. Azərbaycanda İran-erməni münasibətlərinə həsr olunmuş ilk

[2] Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [100+ cilddə] / İ.H.Əliyev. –Bakı: Azərnəşr, –2020. – c. 105. –s. 307.

araşdırmalardan biri Mirzə Bala Məmmədzadənin "Ermənilər və İran" əsəri olmuşdur. XX əsrin 20-ci illərində İranda mühacir həyatı yaşamış M.B.Məmmədzadə erməni təşkilatlarının bu ölkədə antitürk fəaliyyətləri barədə çox əhəmiyyətli məlumatlar vermişdir. Müəllif həmin dövrdə ermənilərin ariçilik və yaxud panariyanizm ideyasından öz mənfur məqsədləri naminə istifadə etmələrindən də bəhs etmişdir.[3]

Azərbaycanlı tədqiqatçılardan Hafiz Paşayev, Musa Qasımlı, Elman Nəsirov, Hikmət Babaoğlu, Seyidağa Onullahi, Eynulla Mədətli, Atamoğlan Məmmədli, Sübhan Talıblı, Vüsal Qasımlı, Zaur Şiriyev, Zülfiyyə Vəliyeva, Kəmalə Ruintən, Hatəm Cabbarlı, Fəxrəddin Hüseyn, Məsiağa Məhəmmədi, Yeganə Hacıyeva, Əlimusa İbrahimov və başqalarının əsərləri problemin müxtəlif tərəflərinin tədqiqi baxımından əhəmiyyətli olmuşdur.

H.Paşayevin "Bir səfirin manifesti" əsəri Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində meydana çıxmış Qarabağ münaqişəsində İranın rolunun, dünyanın müxtəlif ölkələrində, o cümlədən İslam Respublikasında mütəşəkkil fəaliyyət göstərən erməni təşkilatlarının fəallığının səbəblərinin başa düşülməsi baxımından əhəmiyyətlidir. Kitab daha çox xatirə şəklində yazılsa da, real və çox zaman rəsmi qaynaqlarda əksini tapmamış məlumatları əks etdirir. Əsərdə ABŞ-dan olan bəzi siyasi xadimlərin və konqres üzvlərinin Ermənistan-İran münasibətləri ilə bağlı fikirlərinə də yer verilmişdir.[4]

M.Qasımlı əsərlərində Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsində İranın roluna toxunmuş, bunun ikitərəfli münasibətlərə təsirlərini mötəbər mənbələr əsasında tədqiq etmişdir.[5]

---

[3] Məmmədzadə, M.B. Ermənilər və İran / Əski əlifbadan çevirəni, ön söz müəllifi A.Paşayev. –Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, –1993. –s. 10.

[4] Paşayev, H.M. Bir səfirin manifesti /H.M.Paşayev. –Bakı: Şərq-Qərb, –2007. –248 s.

[5] Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): [2 cilddə] / M.C.Qasımlı. –Bakı: Mütərcim, –2015.–c. I. –664 s.; Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi / M.C.Qasımlı. –Bakı: Azərnəşr, –1993. –91 s.; Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix-olduğu kimi (1920-1994) / M.C.Qasımlı. –Bakı: EİF, –2016. –520 s.; Azərbaycan parlamentarizm tarixi: [2 cilddə] / M.C.Qasımlı, B.Ə.Muradova. –Bakı: Mütərcim, –2018. c. 2. –680 s.

E.Nəsirovun siyasi elmlər doktorluğu dissertasiyasının ABŞ-ın antiterror siyasəti və İran, ABŞ-ın antiterror siyasətində Azərbaycan Respublikasının yerinə həsr olunmuş fəsillərində İran-Ermənistan münasibətləri ilə paralellərin və müqayisəli təhlillərin aparılması baxımından əhəmiyyətli məlumatlar əksini tapmışdır.[6]

H.Babaoğlunun əsərlərində Qafqaz regionundakı geosiyasi şəraitin təhlili aparılmış, Azərbaycanın xarici siyasətində İranın yeri, Ermənistanla münasibətlərə mümkün təsirlər tədqiq edilmişdir.[7]

S.Onullahinin "Erməni millətçiləri və İran" əsəri daha çox publisistik xarakterlidir. Burada əksini tapmış məlumatlar elmi metodoloji prinsiplər əsasında deyil, müəllifin şəxsi yanaşması əsasında təhlil edilmişdir.[8]

E.Mədətlinin tədqiqatlarında əsas diqqət yetirilən mövzu Azərbaycan-İran münasibətləri, İran tarixşünaslığında Azərbaycan məsələləridir.[9]

A.Məmmədlinin məqalələrində siyasi və iqtisadi əlaqələrin inkişaf dinamikasından[10], S.Talıblının araşdırmalarında İranın Ermənistan siyasətindən ümumi şəkildə bəhs edilmişdir.[11]

V.Qasımlı, Z.Şiriyev, Z.Vəliyevanın birgə tədqiqatlarının nəticəsi olaraq meydana çıxan "İran-Ermənistan münasibətləri: geosiyasi reallıq versus siyasi iddialar" kitabı Azərbaycanda birbaşa

---

[6] Nəsirov, E.X. ABŞ və beynəlxalq terrorizm problemi:/ siyasi elmlər doktoru dis./ –Bakı, 2010. –320 s.

[7] Babaoğlu (Məmmədov), H.B. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu / H.B.Babaoğlu (Məmmədov). –Bakı: Aypara-3, –2009. –328 s.; Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi (siyasi, ideoloji və diplomatik məsələlər) / H.B.Babaoğlu (Məmmədov). –Bakı: Elm, –2007. –515 s.; Dünya siyasəti və beynəlxalq münasibətlər. Dərslik. / H.B.Babaoğlu (Məmmədov). –Bakı: Çinar-çap, –2010. –564 s.

[8] Onullahi, S.M. Erməni millətçiləri və İran / S.Onullahi. –Bakı: Maarif, –2002. –87 s.

[9] Mədətli, E.Y. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəli) / E.Y.Mədətli. –Bakı:Turxan NPB, –2017. –288 s.; Azərbaycanın vətən müharibəsinə İranda münasibət: ənənəvi yanaşma və yeni reallıq // –Bakı: AMEA Fəlsəfə və Sosilogiya İnstitutunun Elmi Əsərlər jurnalı, –2020. № 2 (35), –s. 8-18.

[10] Məmmədli, A.A. İran-Ermənistan siyasi əlaqələrinin inkişafı // –Bakı: Dünya Azərbaycanlıları, –2008. №2 (5), –s. 40-47.

[11] Talıblı, S.Ə. İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər) / S.Ə.Talıblı. –Bakı: Elm və Təhsil, –2016. –359 s.

mövzuya aid olan azsaylı tədqiqat əsərlərindəndir.[12]

K.Ruintənin Ermənistan-İran və Azərbaycan-İran əlaqələrinə dair bir sıra məqalələri həm farsdilli qaynaqlardan geniş istifadə, həm də analitik təhlil baxımından seçilir.[13]

H.Cabbarlının Ermənistanın xarici siyasətinə həsr olunmuş kitabında qısaca da olsa iki dövlət arasındakı münasibətlərdən bəhs edilmişdir.[14] Müəllifin məqalələrində daha çox erməni mənbələrinə istinad etməsi bu əsərlərin fərqləndirici xüsusiyyəti kimi qeyd oluna bilər.[15]

F.Hüseynin tədqiqatları əsasən İran-Azərbaycan siyasi münasibətləri ilə bağlıdır və xronoloji baxımdan 1991-1997-ci illəri əhatə edir. Müəllifin əsərlərində Ermənistan-İran İslam Respublikası münasibətlərinin inkişafı, situativ tənəzzülü məsələləri öyrənilmiş, iki qonşu ölkənin münasibətləri Azərbaycanla əlaqələr kontekstində qiymətləndirilmişdir.[16]

M.Məhəmmədinin İranın siyasi sistemini və sosial strukturunu dərindən bilməsi onun Ermənistan-İran münasibətlərinə də özünəməxsus yanaşmasını şərtləndirmişdir.[17]

---

[12] Qasımlı, V. İran-Ermənistan münasibətləri: geosiyasi reallıq versus siyasi iddialar / V.Qasımlı, Z.Şiriyev, Z.Vəliyeva. –Bakı: SAM, –2011. –47 s.

[13] Ruintən, K.F. Dağlıq Qarabağ problemi və İran İslam Respublikası // –Bakı: Tarix və onun problemləri, –2010. №4, –s. 138-147; Ermənistanda baş verən ictimai-siyasi proseslər İranlı mütəxəssislərin gözü ilə və İran KİV-lərində // –Bakı: Tarix və onun problemləri, –2011. № 1, –s. 131-137; Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti / K.F.Ruintən. –Bakı: Adiloğlu, –2008. –260 s.

[14] Cabbarlı, H.Q. Ermənistanın xarici siyasəti (1991-2012) / H.Q.Cabbarlı. –Bakı: ATSAM, –2014. –508 s.

[15] Cabbarlı, H.Q. Ermenistan'ın İran Politikası // –Çankırı: Karatekin Üniversitesi Uluslararası Avrasya Strateji Dergisi, –2012. № 10(10), –s. 147-174.

[16] Hüseyn, F.Ş. İran-Azərbaycan siyasi münasibətləri (1991-1997-ci illər): / tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı. / –Bakı, 2005. –25 s.; Azərbaycan-İran siyasi münasibətləri (1991-1997) / F.Ş.Hüseyn. –Bakı, –2008. –192 s.

[17] Məhəmmədi, M. Azərbaycan İran münasibətləri // Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) /məqalələr toplusu/. –Bakı: "Poliart" MMC, –2017. –904 s.; Azərbaycan-İran siyasi əlaqələrinin hazırkı durumu və perspektivləri // Azərbaycan-İran əməkdaşlığı: əsas istiqamətlər və imkanlar / redaktorlar: C.Vəliyev və M.Məhəmmədi. –Bakı: Az SAM, –2018.

Y.Hacıyevanın monoqrafiyasında İİR-də milli hüquqlar məsələsinə toxunulmuş, bu ölkədə çoxsaylı azərbaycanlılar və kiçik erməni icmasının sahib olduğu status və hüquqların miqyası və məzmunu müqayisəli təhlil edilmişdir.[18]

Ə.İbrahimovun bir sıra məqalələrində İran İslam Respublikasının xarici siyasəti, eləcə də Qafqaz siyasətinin başlıca istiqamətləri, Ermənistanla münasibətlərə dair bəzi məsələlərə toxunulmuşdur.[19]

Həm İİR-də, həm xarici ölkələrdə yaşayan iranlı tədqiqatçılar kitab və məqalələrində mövzunun müxtəlif aspektlərinə toxunmuşlar. Mərziyyə Kuhi-Esfahani, Elahe Koolayi, Bəhram Əmirəhmədiyan, Əhməd Kazemi, Məhəmmədcəfər Cavadi Ərjmənd, Yəzdan Keyxosrov-Dövlətyari, Ehsal Fallahi, Əkbər Vəlizadə, Şiva Əlizadə, Cavad Heydəri, Nura Qeysəri, Mahnaz Qoodərzi, Mohsen Nezamabadi, Arəş İftixari, Əli Reza Davudi, Ebadullah Abdulnasir Fəyyazi və digərlərinin əsərləri bu cəhətdən diqqəti cəlb etməkdədir.

M.Kuhi-İsfahaninin 2019-cu ildə nəşr edilən "İranın Cənubi Qafqazda xarici siyasəti: Azərbaycan və Ermənistanla münasibətlər" adlı əsərində Cənubi Qafqazda regional və xarici güclərin rolu, İranın xarici və regional siyasəti tədqiq edilmişdir. Əsərin sonuncu fəsli birbaşa Ermənistan-İran münasibətləri barədədir. Müəllif iki ölkəni bir-birinə yaxınlaşdıran siyasi amilləri təhlil etmişdir.[20]

E.Koolayi məqalələrində ikitərəfli münasibətlərin ən müxtəlif istiqamətlərinə toxunmuş, siyasi, iqtisadi, mədəni sahədə əlaqələri təhlil etmişdir. [21]

---

–203 s.; Məhəmmədi, M. Güney Azərbaycan məsələləri (Məqalələr, Müsahibələr, Tərcümələr) / M.Məhəmmədi. –Bakı: Bakı Çap Evi, –2012. –224 s.

[18] Hacıyeva, Y.Ə. İslam İnqilabından sonra Cənubi Azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005-ci illər) /Y.Ə.Hacıyeva. –Bakı:Adiloğlu, –2017. –306 s.

[19] İbrahimov, Ə.G. İran İslam Respublikasının xarici siyasətinin əsas prioritetləri // –Bakı: Qafqazşünaslıq jurnalı, –2021. № 1, –s. 77-88.

[20] Kouhi Esfahani, M. Iran's Foreign Policy in the South Caucasus: Relations With Azerbaijan and Armenia. / M. Kouhi Esfahani. –Abingdon, Oxon: Routledge, –2019. –318 p.

[21] Koolaee, E., Hosseini, S.M. Science Diplomacy of the Islamic Republic of Iran in the South Caucasus // International Studies Journal (ISJ), –Spring 2019. Vol. 15, № 4 (60), –pp. 99-131; Koolaee, E., Hafezian, M.H. The Islamic Republic of Iran and the South Caucasus Republics // Iranian Studies, –June 2010. Volume 43, № 3, –pp. 391-409.

B.Əmirəhmədiyan İran-Ermənistan münasibətlərinə aid çoxsaylı analitik məqalələrin müəlliflərindən biridir. Məsələləri neoklassik realizm nəzəriyyəsi çərçivəsində təhlil edən B.Əmirəhmədiyanın yanaşmasında elmi obyektivlikdən daha çox, siyasi-konyuktur yanaşma üstünlük təşkil edir.[22]

Ə.Kazemi məqaləsində 2020-ci ildə baş vermiş 44 günlük müharibədə Azərbaycanın qələbəsinin İrana mənfi təsirləri olduğunu əsaslandırmağa cəhd göstərmişdir. O, hadisə və prosesləri birtərəfli şəkildə qiymətləndirmişdir.[23]

M.Ərjmənd və Y.Keyxosrov-Dövlətyari məqalələrində Ermənistan – İran münasibətlərini müxtəlif siyasət nəzəriyyələri, kontekstində təhlil etmiş, Türkiyə-Ermənistan münasibətlərindəki dəyişikliklərin İranla əlaqələrə təsirlərini qiymətləndirmişlər.[24] M.Ərjmənd E.Fallahi ilə birlikdə yazdığı başqa bir məqaləsində Türkiyə və İranın Cənubi Qafqazda siyasətlərinin həyata keçirilməsində Azərbaycan və Ermənistan nümunələrinin qarşılıqlı müqayisəli təhlilini aparmışdır. Həmin müəlliflər İran İslam Respublikasının Qafqaz ölkələri ilə əlaqələrinə, xüsusən Azərbaycan Respublikası ilə münasibətlərə imperialist nöqteyi-nəzərlərlə baxırlar. Hətta bir çox hallarda Azərbaycan Respublikasının müstəqilliyini sual altında qoyan fikirlərlə çıxış edirlər.[25]

Ə.Vəlizadə və Ş.Əlizadə erməni icmasının İran üçün yaratdığı fürsətləri və təhdidləri araşdırmışlar.[26] C.Heydərinin bəzi məqalələrində

---

22 امیر احمدیان، ب. تحلیل روابط ایران و ارمنستان با استفاده از چارچوب نظری واقع گرایی تدافعی \ ب. امیر احمدیان، ح. رضازاده، ا. جرفی \\، - تهران: مطالعات اوراسیای مرکزی، - سال نهم بهار و تابستان 1395. شماره 1 (پیاپی18). ص. 19-41.

23 کاظمی، ا. تاثیر جنگ دوم قرەباغ بر ظرفیت‌های ژئوپلیتیک ایران در حوزه انتقال انرژی: [منبع الکترونیکی] \ موسسه مطالعات ایران و اوراسیا (ایراس). - ۲۸ آبان ۱۳۹۹.
URL: http://iras.ir/iras.irfa/doc/note/4178/-تاثیر-جنگ-دوم-قره-باغ-ظرفیت-های-ژئوپلیتیک-ایران-حوزه-انتقال-انرژی

24 ارجمند، ح. ج.، کیخسرو دولتیاری، ی. تحلیل ژئوپلیتیکی روابط ایران و ارمنستان در چهار جوب تئوریک اندرسون و طرح یک همکرایی منطقه‌ای بعد از خر ایند عادی‌سازی روابط میان ارمنستان و تر کیه // - تهران: فصلنامه ژئوپلیتیک – سال هشتم. شماره دوم. تابستان ۱۳۹۱، - ص.192-223 .

25 ارجمند، م.ج.، فلاحی، ا. بررسی تطبیقی سیاست خارجی ایران و ترکیه در قفقاز جنوبی (با تاکید بر ارمنستان و جومهوری اذربایجان) \\ - تهران : مطالعات اوراسیای مرکسی، پاییس و زمستان 1394-، دورة 8، ضمارة 2 ، ص.211-228.

26 ولیزاده، ا. ، علی زاده، ش. دیاسپورای ارمانی :فرصت ها وتحدیدهای پیش روی ایران//- تهران: فصلنامه سیاست،-1394. دوره ۴۵، شماره ۴، ص. 1075-1094

Ermənistanın təhlükəsizlik problemlərindən bəhs edilmişdir.[27]

Ermənistanla münasibətlərin İran üçün yaratdığı imkanlar və təhdidlərin təhlilinə N.Qeysəri və M.Qoodərzi xüsusi diqqət yetirmişlər.[28] M.Nezamabadinin əsərlərindən birində isə iki ölkə arasında mədəni sahədə əlaqələr təhlil edilmişdir.[29]

A.İftixari İran İslam Respublikasının Qafqaz siyasətinə dair yazdığı dissertasiya işində 1991-2005-ci illərdə bu ölkənin region siyasətinin başlıca istiqamətlərini tədqiq etmişdir.[30] Ə.Davudinin "Müasir dövrdə İran-Azərbaycan münasibətlərinin əsas istiqamətləri"[31], E.Fəyyazinin "Müasir dövrdə İran və Rusiyanın siyasi əlaqələri" adlı dissertasiya işlərində[32] Azərbaycan – İran və Rusiya – İran münasibətlərinin Ermənistana təsirlərindən bəhs olunmuşdur.

Ermənistanda və dünyanın müxtəlif ölkələrində yaşayan erməni müəlliflərinin də İranla münasibətlərə dair kitab və məqalələri vardır. Onların əksəriyyəti ideoloji-təbliğat materialları, uydurulmuş məlumatlarla "zəngindir". Nikolay Hovannisyan, Andranik Hoviyan, Alla Mirzoyan, Njdeh Asisian, Girard Libaridiyan, Ruben Qaliçyan, Edvard Abramyan, Qarnik Asatryan, Gohar İskandaryan kimi erməni müəlliflərinin əsərləri bu baxımdan xüsusən qeyd edilməlidir.

N.Hovanisyan Ermənistanın xarici siyasətində İranın yeri və

---

27 حیدری، ج. اصلاحات اقتصادی ارمنستان پس از استقلال \\-تهران: مطالعات آسیای مرکزی و قفقاز، - 1381. شماره 40، -ص. 145-151.

حیدری، ج. دیدگاه امنیتی ارمنستان در قفقازجنوبی \\-تهران: فصلنامه مطالعات ۱سای مرکوزی و ففقاز، - تابستان ۱۳۸۳. سالن سیزدهم دوره چهارم. شماره ۴۶. - ص.97-118.

28 قيصري، ن.، گودرزي، م. روابط ایران و ارمنستان: فرصتها و موانع \\ - تهران : مطالعات اوراسیاي مرکزي، مرکز مطالعات عالي بين المللي، دانشکده حقوق و علوم سیاسي، - سال دوم زمستانو بها 1387-1388. شماره 3، ،- ص.121-144

29 نظام آبادی، م. روابط فرهنگی ایران و ارمنستان: ظرثیت‌ها و پتانسیل‌ها// -تهران: قصلنامهانجمن ایرانی مطالعات فرهنگی و ارتباطات، -1395، سال دوازدهم، شماره ۱۴۴، ص. 66-87.

30 İftixari, A.H. İran İslam Respublikasının Qafqaz siyasəti (1991-2005-ci illər): / tarix elmləri namizədi dis./ –Bakı, 2007. –161 s.

31 Davudi, Ə. R. Müasir dövrdə İran-Azərbaycan münasibətlərinin əsas istiqamətləri: / Siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı./ –Bakı, 2010. –24 s.

32 Fəyyazi, E.A. Müasir dövrdə İran və Rusiyanın siyasi əlaqələri: / Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı/ –Bakı, 2014. –27 s.

rolunu təhlil etmiş[33], A.Hoviyan İrandakı erməni icması, onun başlıca fəaliyyət istiqamətləri, təşkilati strukturu haqqında kitab yazmışdır.[34] A.Mirzoyan 1991-2004-cü illərdə Ermənistanın xarici siyasətinə dair dissertasiya işində İİR-lə münasibətləri həm tarix, həm də geosiyasi proseslər kontekstində qiymətləndirməyə çalışmışdır.[35] N.Asisian iki dövlət arasında əlaqələrin Qafqazın regional təhlükəsizliyinə təsirlərini məqalələrindən birində təhlil etmişdir. [36]

G.Libaridiyan "Müasir Ermənistan: xalq, millət, dövlət" əsərində Ermənistanın Azərbaycan ərazilərini işğalı nəticəsində meydana çıxmış münaqişənin həlli üçün ərazi mübadiləsi planı, XX əsrin 90-cı illərinin ortalarında Meğri-Zəngəzur dəhlizinin açılmasının qarşısının alınmasında İİR-in roluna toxunmuşdur.[37] R.Qaliçyanın əsərində Ermənistan və Azərbaycan arasındakı münasibətlərə İİR-in təsirləri ilə bağlı bir sıra məlumatlar təqdim edilmişdir. [38]

E.Abramyanın məqaləsində Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonrakı dövrdə Ermənistanın yeni İran strategiyası təhlil olunmuşdur.[39] Azərbaycana qarşı mübarizədə Ermənistanın İranın

---

[33] Hovhannisyan, N. The foreign policy of the Republic of Armenia in the Transcaucasian-Middle Eastern Geopolitical Region / N.Hovannisyan. –Yerevan: National Academy of Sciences of the Republic of Armenia, Institute of Oriental Studies, –1998. –108 p.

[34] Hovian, A. Iranian Armenians / A.Hovian. –Tehran: Center for International Cultura, –2002. –414 p.

[35] Mirzoyan, A. Armenia's foreign policy, 1991-2004: between history and geopolitics: / A dissertasion submitted in partial fulfillment of the requirements for the degree of doctor of philosophy in international relations / –Miami, Florida, 2007. –322 p.

[36] Asisian, N. An Overview of Iran-Armenian Relations in the Post Soviet Era and Their Impact on Caucasus Regional Stability // Journal of the European Society for Iranian Studies, –August 2018, –pp. 37-48.

[37] Libaridian, G.J. Modern Armenia: People, Nation, State / G.J.Libaridian. –NJ: Transaction Publishers, –2007. –340 p.

[38] Galichian, R. The invention of History. Azerbaijan, Armenia and the Showcasing of imagination / R.Galichian. –London&Yerevan: Printinfo Artbooks, –2010. –s. 8.

[39] Abrahamyan, E. Pashinyan Formulates Armenia's New Iran Strategy: [Digital resource] / Eurasia Daily Monitor, Vol. 15, Issue 145. –October 15, 2018. URL: https://jamestown.org/program/pashinyan-formulates-armenias-new-iran-strategy/.

gücündən istifadə etməsinin zəruriliyi ilə bağlı ideyalar Q.Asatryanın yazılarında xüsusi yer tutur.[40] G.İskandaryanın məqalələrində İrandakı erməni icması və onun ikitərəfli münasibətlərə təsirləri məsələləri öyrənilmişdir.[41]

Mövzu müxtəlif xarici ölkələrdən olan tədqiqatçıların da diqqətini cəlb etmişdir. Dissertasiya işinin yazılması zamanı ABŞ-dan olan müəlliflərdən Tomas De Vaal, Petros Tifanni, Böyük Britaniyadan olan tədqiqatçı Barri Buzan, Danimarkalı tədqiqatçı Ole Vaver, Fransadan olan kəşfiyyat və təhlükəsizlik eksperti Klaudie Monique, Belçikalı alim Uilyam Rasimora[42], türk tədqiqatçılarından Barış Doster, Fatma Aslı Kelkitli, Göktürk Tüysüzoğlu,[43] Rusiyadan olan müəlliflərdən Vladimir Mesamed, Aleksey Kurtov, Vladimir Yurtayev, Yekatrina Andreyeva, Yuri Bondar[44], gürcü tədqiqatçılarından Giorgi Sanikidze[45] və

---

[40] Asatryan, G.S. Armenia and security issues in the South Caucasus // –Yerevan: The Quarterly Journal, –September 2002, №3, –pp. 21-30.

[41] İskandaryan, G. The Armenian community in Iran: Issues and emigration // Global Campus Human Rights Journal, –2019, № 3. –pp. 127-140.

[42] De Vaal, T. Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında (Black Garden: Armenia and Azerbaijan Through Peace and War) / T.D.Vaal. –Bakı: İlay MMC, –2008. –344 s.; Tifanny, P. Evolution of Armenia's Foreign Policy // Armenian International Policy Research, –2003. –p.1-17; Buzan, B., Wæver, O. Regions and Powers: The Structure of International Security / B.Buzan, O. Wæver, –Cambridge: Cambridge University Press, –2003. –564 p.; The Armenia-Iran relationship. Strategic implication for security in the Caucasus / Ed. by C.Moniquet and W.Racimora. –ESISC, –2003. –65 p.

[43] Doster, B. Bir Bölgesel Güç Olarak İran'ın Ortadoğu Politikası // –Ankara: Ortadoğu Analiz, –2012, Ağustos. Cilt 4, Sayı 44, –s. 44-51;Kelkitli, F.A. Soğuk savaş sonrası Ermenistan-Iran ilişkileri: gelişen ve derinleşen bağlar // –Ankara: Ermeni Araştırmaları dergisi, –2013. № 46, –s. 129-142.;Tüysüzoğlu, G. How demand for security influence the shaping of foreign policy: Using the theory of securitisation to understand Armenia–Iran relations // Journal of Eurasian Studies, –2014. № 5, –p. 192–201.

[44] Месамед, В.И. Иран и немусульманские страны Южного Кавказа (Армения и Грузия) / В.И. Месамед. –Москва, –2015. –254 с.; Куртов, А.А. Армяно-иранские отношения // Армения: проблемы независимого развития / Ред. Е.М.Кожокин. –Москва: РИСИ, –1998. –с. 383-448.

کورتف، ا. روابط ایران ارمنستان از دیدگاه روسیه // - تهران: مطالعات آسیای مرکزی و قفقاز، - تابستان۱۳۷۷. شماره ۲۲ ، - ص. 113-144

Юртаев, В.И. Иран: регионализация и геополитика // –Москва: Вестник РУДН. Серия: Международные отношения, –2010. № 4, –с. 19-28; Особенности

başqalarının monoqrafiya, kitab, məqalə və təhlillərindən geniş istifadə edilmişdir.

Dissertasiyanın işlənməsi zamanı Azərbaycan, türk, ingilis, rus, fars və erməni dillərində olan çoxsaylı mənbələrdən, indiyə qədər elmi dövriyyəyə gətirilməmiş bir sıra mötəbər arxiv sənədlərindən, sənədli film və videolardan, dövri mətbuat və internet materiallarından istifadə olunmuşdur.

Qafqaz geosiyasətinin formalaşmasında xüsusi rola malik olan dövlət xadimləri – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxış, nitq və bəyanatlarından, İran İslam Respublikası və Ermənistan Respublikasının rəsmi şəxslərinin açıqlamalarından istifadə olunmuşdur. İran İslam Respublikası Milli Arxivləri və Kitabxanası, Azərbaycan Respublikası Dövlət Arxivi və digər arxivlərdə saxlanılan sənədlər və hesabatlar tədqiqata cəlb edilmişdir.

Dissertasiya işi yazılarkən Azərbaycan Respublikası XİN-in müxtəlif illərdə nəşr edilmiş sənəd toplularındakı materiallardan, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ hüquqi aktların vahid internet elektron bazasının (E-qanun.az), Ermənistan qanunvericiliyinin rəsmi məlumat bazasının (ARLİS), Vikileaksın sənədlərindən istifadə edilmişdir. İran İslam Respublikası XİN-in və Ermənistan Respublikası Nazirlər Kabinetinin, XİN-in dərc olunmuş və ya qlobal internet məkanında yayılmış bəzi sənəd və aktları,

---

внешней политики Ирана (1979-2013 гг.) / В. И. Юртаев. –Москва: РУДН, –2014. -162 с.;Андреева, Е.С. Интересы Ирана на Южном Кавказе сквозь призму отношений Тегерана с Арменией // –Москва: Проблемы Национальной Стратегии, –2019. № 1 (52), –с. 110-122;Бондарь, Ю.М. Обзор экономической ситуации в Иране за сентябрь 2019 г.: [Электронный ресурс] / Сайт Институт Ближнего Востока, –30 октября, 2019. URL: www.iimes.ru/?p=62320; Иран: июнь 2019 г. Военно-политическая ситуация: [Электронный ресурс] / Сайт Институт Ближнего Востока, –29 июля, 2019. URL: http://www.iimes.ru/?p=58643. Обзор экономической ситуации в Иране за июль 2019 г.: [Электронный ресурс] / Сайт Институт Ближнего Востока, –5 сентября, 2019. URL: www.iimes.ru/?p=59971.

[45] სანიკიძე, გ. ირანი და სამხრეთ კავკასიის ქვეყნები განსხვავებული რეალობები, განსხვავებული შესაძლებლობები / გ.სანიკიძე. – თბილისი: ილიას სახელმწიფო უნივერსიტეტი, -2022. -308 გ.

müxtəlif illərdə qəbul edilmiş hökumət proqramları və milli təhlükəsizlik doktrinaları təhlilə cəlb edilmişdir.

Rəsmi dövlət orqanlarının internet səhifələri xüsusi informasiya mənbələri olaraq qruplaşdırılmışdır. Azərbaycan Respublikasının Prezidentinin, Xarici İşlər Nazirliyinin, Müdafiə Nazirliyinin, İİR-in ali dini liderinin, Prezidentinin, İslami Şura Məclisinin, Xarici İşlər Nazirliyinin, Dövlət Statistika Mərkəzinin, Şərqi Azərbaycan vilayətinin (ostanının), Ermənistan Respublikası Prezidentinin, Milli Məclisinin, Nazirlər Kabinetinin, Baş Nazirinin, Xarici İşlər Nazirliyinin, ABŞ Dövlət Departamentinin, Avropa İttifaqının, Rusiya Federasiyası Energetika Nazirliyinin, Gürcüstan Xarici İşlər Nazirliyinin rəsmi internet səhifələrindəki məlumatlar kontent analiz edilmiş, mənbələrdə əksini tapmış faktların müqayisəli təhlilinin aparılması zamanı istifadə olunmuşdur.

Azərbaycan, Türkiyə, İran, Ermənistan, Rusiya, ABŞ, Böyük Britaniya kütləvi informasiya vasitələrinin mövzuya dair materialları da toplanılmış, sistemləşdirilmiş və tədqiqata cəlb edilmişdir.

**Tədqiqatın obyekti və predmeti**: Tədqiqatın obyekti Ermənistanla İran İslam Respublikası arasında ikitərəfli münasibətlərdir. İkitərəfli siyasi münasibətlərə təsir göstərən amillər, siyasi münasibətlərin inkişaf və tənəzzül dinamikası, institusional siyasi əlaqələrin səviyyəsi, təhlükəsizlik və müdafiə sahəsində əlaqələrin mahiyyəti, iqtisadi əməkdaşlığın əsas istiqamətləri, onu şərtləndirən amillər, enerji, sənaye, kənd təsərrüfatı, turizm sahələrində əməkdaşlığın vəziyyəti, ticarət əlaqələri, azad ticarət zonalarının fəaliyyəti, nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlıq məsələləri, qarşılıqlı sərmayə axınları, humanitar, mədəni, dini, media sahələrində əməkdaşlıq, İranda milli siyasət, erməni icmasına münasibət, erməni təşkilatlarının fəaliyyətləri tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqatın başlıca məqsədi Ermənistan və İran arasında münasibətlərin qurulması, mövcud vəziyyətini tədqiq etmək, problemlərini müəyyənləşdirmək, mümkün inkişaf ssenarilərini proqnozlaşdırmaqdır.

Qarşıya qoyulan məqsədə çatmaqdan ötrü dissertasiya işinin yazılması zamanı aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- İki ölkə arasında münasibətlərə təsir göstərən amillərin təhlili;

- Münasibətlərin müxtəlif mərhələlərinin, inkişaf və tənəzzül dinamikasının elmi-metodoloji prinsiplər əsasında müəyyənləşdirilməsi;
- Siyasi münasibətlərin mövcud səviyyəsinin, problemlərinin və onlardan praktik siyasətdə istifadə imkanlarının öyrənilməsi;
- İnstutsional səviyyədə və beynəlxalq çoxtərəfli platformalarda Ermənistan-İran əməkdaşlığının tədqiqi;
- Ticarət-iqtisadi əməkdaşlığın qurulmasını şərtləndirən amillərin müəyyən edilməsi, iqtisadi sahədə əlaqələrin mövcud vəziyyətinin təhlil edilməsi;
- Humanitar, mədəni sahələrdə əməkdaşlığın səviyyəsinin və problemlərinin tədqiq edilməsi;
- Erməni terror təşkilatlarına, Ermənistan dövlətinin işğalçılıq və antitürk siyasətinə İranın münasibətinin öyrənilməsi;
- Ermənistan-İran münasibətlərinin gələcəyinin və Azərbaycana təsirlərinin proqnozlaşdırılması.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsasını elmi obyektivlik, mötəbərlilik, inteqrasiya olunmuş yanaşma prinsipləri təşkil edir. Tədqiqatın aparılması zamanı istifadə edilən əsas metodlar sırasında biheviorist üsullar xüsusi yer tutmuşdur. Dəqiq elmlər üçün xarakterik olan bir sıra metodlar tətbiq edilməklə, münasibətlərin xarakterizə edilməsi üçün mühüm nəticələr əldə edilmişdir. Regional proseslər kontekstində Ermənistan ilə İran arasında ikitərəfli əməkdaşlığın inkişafının əsas xüsusiyyətləri öyrənilərkən sistemli analiz metodundan istifadə edilmişdir.

İndiyə qədər siyasi elmlərdə istifadə olunan metodlarla yanaşı münasibətlərin dinamikasının qiymətləndirilməsi üçün bu sahədə yeni sayıla biləcək indikatorlar metodu tətbiq edilmişdir. Bu metodun tətbiqi əsasında münasibətlərdə situativ böhran dövrlərinin müəyyən edilməsi mümkün olmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində aşağıdakı elmi müddəalar müzakirəyə çıxarılmışdır:

- Ermənistanın və İranın xarici siyasət konsepsiyalarında, hüquqi sənədlərdə elan olunan prinsiplərlə real və praktik siyasətləri arasında fərq vardır.
- İkitərəfli münasibətlərin inkişafında özünəməxsus

xüsusiyyətləri ilə seçilən beş əsas mərhələni (qurulma və əsas istiqamətlərin müəyyənləşməsi (1991-1997), əlaqəli təkamül (1998-2008), geosiyasi təhdidlərə qarşı yaxınlaşma (2008-2018), ikili siyasət (2018-2020) və 2020-ci ildən sonrakı mərhələ) fərqləndirmək mümkündür.

- İslami Şura Məclisində erməni deputatların fəaliyyəti İranın Azərbaycan və Türkiyə kimi dövlətlərlə münasibətlərini pozmağa yönəlmişdir.
- İran hasil olunan karbohidrogen ehtiyatlarını Ermənistan-Gürcüstan-Qara dəniz xətti üzərindən Avropa bazarına çıxarmaq planlarının yaxın və ortamüddətli dövrdə gerçəkləşməsi mümkünsüzdür. Ermənistan istehsal etdiyi elektrik enerjisinin bir qismini uzun müddət İrana satmağa çalışsa da, Avropa enerji bazarında baş verən dəyişikliklər yaxın gələcəkdə fərqli şərait yarada bilər.
- İİR müxtəlif sahələrdə Ermənistanla iqtisadi əlaqələr qursa da, investisiyaların yatırılması məsələsinə nisbətən ehtiyatla yanaşır. Buna səbəb Ermənistanın iqtisadi idarəetmə sistemindəki bürokratik əngəllər, bu ölkənin investisiyalar üçün etibarlı olmamasıdır. İran sərmayələrdən iqtisadi alət kimi deyil, daha çox siyasi məqsədlərlə istifadə etmişdir.
- İranda antitürk təbliğatının aparılmasında ermənidilli mətbu orqanlar mühüm rol oynayırlar. Bu ölkədə KİV üzərində dövlətin təsir gücü onu deməyə əsas verir ki, İran bəzən məqsədli şəkildə bu cür təbliğatın qarşısını almır və ondan təzyiq vasitəsi kimi istifadə edir.
- Rəsmi səviyyədə İranı dost dövlət adlandıran, regional geosiyasətdə təklənmədən xilas olmaq üçün onunla əlaqələr qurmağa ehtiyac duyan Ermənistan paralel olaraq bu ölkəyə qarşı iş aparır.
- 2020-ci ildə baş verən 44 günük müharibə dövründə İranın bitərəfliyini qoruyub saxlaması, müharibənin sonuna yaxın isə Azərbaycana müxtəlif səviyyələrdə dəstəyini ifadə etməsi ümmət təəssübkeşliyindən deyil, Ermənistandakı mövcud rejimə soyuq münasibətdən, regional proseslərdə oyundankənar vəziyyətə düşməmək niyyətlərindən qaynaqlanmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin əsas yenilikləri aşağıdakılardır:

- İlk dəfə olaraq dövlətlərarası münasibətlərin hərəkət dinamikasının öyrənilməsi üçün indikatorlar metodu müəyyən edilmiş və Ermənistan-İran münasibətlərinin inkişaf dinamikası bu metod əsasında qiymətləndirilmişdir. Bu metodun tətbiqi nəticəsində ikitərəfli münasibətlərdə təkcə irimiqyaslı tənəzzül və tərəqqi dövrləri deyil, situativ, qısamüddətli tənəzzül və tərəqqi dövrləri də müəyyənləşdirilmişdir.
- Din amilinin iki dövlətin xarici siyasətinə və qarşılıqlı münasibətlərinə təsiri ilk dəfə xüsusi tədqiqat mövzusuna çevrilmişdir. İran dövlətinin başlıca prinsiplərindən biri kimi bəyan etdiyi "dünyadakı müsəlmanların müdafiəsi" şüarı ilə Ermənistanla qurduğu sıx qarşılıqlı əlaqələrin bir-birinə ziddiyyət təşkil etdiyi mötəbər qaynaqlarda əksini tapmış faktlar əsasında isbat edilmişdir.
- İranın Ermənistan və ermənilərdən təkcə Qafqazdakı proseslərə deyil, Yaxın Şərqdə, xüsusən Livan və Suriyadakı proseslərə də təsir etmək üçün istifadə etdiyi ortaya çıxarılmışdır.
- İkitərəfli münasibətlərin xronoloji dövrləşdirilməsi beş mərhələli sistem üzrə aparılmış, mərhələlər xarakterik xüsusiyyətlərinə görə adlandırılmışdır.
- İki dövlət arasında parlament diplomatiyası mövzusu ilk dəfə olaraq xüsusi istiqamət kimi tədqiqata cəlb edilmişdir. Müəyyən edilmişdir ki, parlamentlərarası əlaqələrin səviyyəsi icra strukturları arasında münasibətlərin səviyyəsi ilə müqayisədə geri qalır. Lakin dövlətlərin ali idarəedicilərinin ifadə edə bilmədiyi fikirlər bir çox hallarda parlamentlərdəki ayrı-ayrı siyasi qrupların nümayəndələri vasitəsi ilə bəyan olunur.
- İranın Ermənistan üzərindən bir sıra çoxtərəfli iqtisadi platformalar yaratmaq cəhdlərinin uğursuzluğa düçar olmasının səbəbləri (Ermənistanın iqtisadi və nəqliyyat-kommunikasiya dalanına çevrilməsi; həm siyasi, həm iqtisadi baxımdan uzun illər üçüncü dövlətdən (Rusiya Federasiyasından) asılılığı) müəyyənləşdirilmişdir.
- Sübuta yetirilmişdir ki, İran qazının Ermənistan üzərindən

Avropa bazarına çıxarılmasını Avropa İttifaqı dəstəkləsə də, ABŞ və Rusiya bu prosesə mane olmağa çalışmışdır. Bu dünya geosiyasətində Aİ ilə ABŞ-ın mövqelərinin toqquşduğu, ABŞ-la Rusiyanın maraqlarının isə üst-üstə düşdüyü nadir situasiyalardan biridir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində əldə olunmuş nəticələrdən gələcəkdə bu istiqamətdə yeni elmi əsərlərin yazılması, ikitərəfli münasibətlər və onların inkişafına dair elmi-nəzəri proqnozlaşdırmanın aparılması zamanı istifadə edilə bilər. Beynəlxalq münasibətlər, Qafqazşünaslıq və Yaxın Şərq üzrə monoqrafiya, dərslik və dərs vəsaitlərinin hazırlanmasında da əldə olunmuş nəticələrdən istifadə olunması mümkündür. Tədqiqatın təcrübi əhəmiyyətinə gəlincə, qeyd etmək lazımdır ki, dissertasiya işində əksini tapmış fakt və məlumatlardan, əldə olunmuş nəticələrdən praktik diplomatiyada istifadə oluna bilər. Bu mənada tədqiqat İran və Ermənistan istiqamətində fəaliyyət göstərən diplomatlar üçün praktiki əhəmiyyətə malikdir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas məzmunu iddiaçının Azərbaycanda və Türkiyə Cümhuriyyətində çap olunmuş monoqrafiya və kitablarında, Azərbaycan, Türkiyə, Böyük Britaniya, Rusiya, Avstriya, Çexiya, Çili, Ukrayna, Rumıniya, Polşa kimi xarici ölkələrdə nəşr edilmiş elmi məqalələrində, beynəlxalq və respublika səviyyəli elmi-nəzəri, elmi-praktik konfranslarda etdiyi çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Hüquq və İnsan Haqları İnstitutunun Beynəlxalq münasibətlər və insan hüquqları şöbəsində və Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi.** Giriş (35 min 469 işarə), paraqraflara bölünmüş beş fəsil (I Fəsil – 4 paraqraf – 92 min 959; II Fəsil – 4 paraqraf - 92 min 801; III Fəsil – 3 paraqraf – 93 min 343; IV Fəsil – 5 paraqraf – 80 min 476; V Fəsil - 3 paraqraf – 58 min 123 işarə), nəticə (23 min 698 işarə), istifadə olunmuş ədəbiyyat siyahısı, əlavələr, ixtisarların və şərti işarələrin siyahısından ibarət olan dissertasiya işinin mətn hissəsi 476 min 869 işarə həcmindədir.

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, işlənmə dərəcəsi verilmiş, tədqiqatın məqsəd və vəzifələri, obyekti, araşdırma metodları, nəzəri əsasları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və strukturu göstərilmişdir.

Dissertasiyanın **“Münasibətlərin qurulması və inkişaf mərhələləri”** adlanan və dörd paraqrafdan ibarət olan birinci fəslinin **“Münasibətlərin tədqiqinin siyasi-nəzəri problemləri” adlı birinci paraqrafında** qeyd olunur ki, Ermənistan və İran arasında münasibətlərini yalnız bir nəzəri baxış əsasında təhlil qeyri-mümkündür. Bu həm müasir dövrdə dövlətlərarası münasibətlərin xarakterinin mürəkkəbliyi, həm də iki dövlətin xarici siyasətinin xüsusiyyətlərindən irəli gəlir. Nə İran İslam Respublikası, nə də Ermənistan Respublikası ənənəvi qərb modelli dövlətlər deyildir. İran quruluş etibarilə respublika kimi görünsə də, özünəməxsus siyasi sistemə malikdir. Dini-ruhani elitanın respublika institutları üzərində xüsusi nəzarət mexanizmləri vardır. Xarici siyasətlə bağlı məsələlər yalnız Prezidentin və ya xarici siyasəti həyata keçirən institutların siyasi yanaşması əsasında həll edilmir. Ali dini liderin simasında dini-ruhani elitanın xarici siyasətlə bağlı məsələlərə ciddi təsir imkanları var. Siyasi sistem dövlətin siyasi institutlarına rəhbərlik edən şəxslərin onlarla razılaşmamasını mümkünsüz edir.

Başqa bir məsələ İranda İslam Respublikasının elan edilməsindən bəri müəyyən edilmiş xətlə bağlıdır. İran xarici siyasətində “nə Şərq, nə Qərb, yalnız İslam Cümhuriyyəti” prinsipini elan etmişdir.[46] Bununla da İslam Respublikası mövcud olduğu bütün dövr ərzində beynəlxalq münasibətlər sisteminin oturuşmuş qaydalarını dəyişdirməyə çalışmışdır. Həmin cəhət onun xarici siyasətinin beynəlxalq siyasi sistemin II Dünya müharibəsindən sonra müəyyən edilmiş qaydaları çərçivəsində qiymətləndirilməsinə imkan vermir. İslam Respublikası əvəzlədiyi şah rejiminin irsindən imtina etdiyini elan etsə də, İranın 5000 illik dövlətçilik tarixinə istinad edir. Fars diplomatiyasının tarixdən

---

[46] İbrahimov, Ə.G. İran İslam Respublikasının xarici siyasətinin əsas prioritetləri // –Bakı: Qafqazşünaslıq jurnalı, –2021. № 1, –s. 83.

qaynaqlanan ənənələrini davam etdirir. Bu diplomatiya kifayət qədər çoxvektorlu və mürəkkəbdir.

Ermənistan adlanan dövlət də həm formalaşma xüsusiyyətlərinə, həm də ermənilərin milli xüsusiyyətlərinə görə çox mürəkkəb xarakterə malikdir. İranda olduğu kimi Ermənistanda da dinin dövlət üzərində ciddi təsirləri vardır. Erməni Qriqorian kilsəsi dövlətin xarici siyasətinin formalaşmasında əhəmiyyətli rol oynayır. Tarixi baxımdan erməni diplomatiya ənənələri məhz kilsə xadimlərinin simasında formalaşıb. Bundan əlavə Ermənistan xarici siyasətinə xaricdəki erməni diasporu və lobbi təşkilatları da təsir göstərir.

Qeyd olunan məqamları nəzərə aldıqda Ermənistan – İran münasibətlərinin öyrənilməsi üçün bir neçə nəzəriyyənin prinsiplərinə istinad etmək zərurəti doğur. Bu baxımdan iki ölkə arasında münasibətləri tədqiq edərkən istinad edilən başlıca nəzəriyyələr realizm və konstruktivizmdir.

Bu paraqrafda həmçinin Ermənistan-İran münasibətlərinin öyrənilməsində ilk dəfə istifadə edilmiş indikatorlar metodunun mahiyyəti izah edilmişdir. Bu metodun xüsusiyyətləri və tətbiqi imkanları göstərilmişdir. İndikatorlar metodundan müxtəlif elm sahələrində aparılan tədqiqatlar zamanı istifadə edilməsi, İ.Mixeyev[47], M.Timofeyeva[48], M.Vlasova[49], N.Bıstrov[50] və digərlərinin bu metodun ictimai elmlərdə tətbiqi ilə bağlı cəhdlərinə də diqqət yetirilmişdir. Belə bir qənaətə gəlinmişdir ki, iki ölkənin münasibətlərinə indikatorlar metodunun tətbiqi bu dövlətlər arasında münasibətlərin bir sıra qeyri-ənənəvi xüsusiyyətlərini üzə çıxarmağa, münasibətlərdə qısamüddətli tənəzzül və tərəqqi dövrlərini

---

[47] Михеев, И. М. Применение математических методов при исследовании системы международных отношений с использованием функциональных пространств: / Ученой степени доктора физико-математических наук, дис. / -Москва, -1997, -312 с.

[48] Тимофеева, М.А. Опыт политического прогнозирования в США и России: уценой степени кандидата политических наук, Автореферат диссертации. / -Санкт-Петербург, 2005 -с. 14

[49] Власова, М.Г. Прогнозирование в разведке: метод индикаторов в современных условиях // -Москва: Вестник РУДН, серия Международные отношения, -сентябрь 2015. Том 15, № 3, -с. 35.

[50] Быстров, Н. Методика оценки могущества государства // -Москва: Зарубежное военное обозрение, -1981. №9, -с. 12-15.

müəyyənləşdirməyə imkan verir.

**I fəslin "Münasibətlərə təsir göstərən amillər"** adlı **ikinci paraqrafında** vurğulanır ki, Ermənistanla İran arasında siyasi münasibətlərə coğrafi, tarixi, demoqrafik, geosiyasi, təhlükəsizlik və iqtisadi amillər təsir göstərir. Bu amillərdən bəziləri münasibətlərin qurulmasını şərtləndirmiş, digər bir qisim isə münasibətlərin xarakterinə təsir göstərmişdir. Qonşuluq və fiziki sərhədlərin mövcudluğu Ermənistanla İran arasında münasibətlərin qurulmasını və mövcudluğunu şərtləndirir. İranın coğrafi və geosiyasi mövqeyi, iqtisadi imkanları onu Ermənistan üçün vacib ölkələrdən birinə çevirir. İran Ermənistanı Avropaya çıxışı üçün dəhlizə çevirməyə çalışsa da bu, geosiyasi amillər səbəbindən mümkün olmur. İran Ermənistanı Cənubi Qafqazda təsirini qoruyub saxlamaq üçün vasitələrdən biri olaraq görür.

Tarixi amil İranın Ermənistan üzərində təsir imkanlarını artırır, eyni zamanda dövlətçilik yaddaşında iz qoymuş bəzi məsələlərə görə ona ehtiyatla yanaşmasına səbəb olur.

İran demoqrafik amildən – bu ölkədə erməni icmasının varlığından beynəlxalq aləmdə öz dövlət imicini yaxşılaşdırmaq, iqtisadi üstünlüklər əldə etmək, Amerika və Avropa ölkələrində erməni lobbisinin gücündən faydalanmaq üçün yararlanır. Ermənistan isə demoqrafik amildən daha çox təcavüzkarlıq məqsədi və iqtisadi maraqları naminə istifadə edir.

Siyasi münasibətlərin inkişafına təsir göstərən əsas amillərdən biri İrandakı erməni icması amilidir. Bu icma İrana təkcə Azərbaycanla münasibətlərdə təzyiq aləti kimi lazım deyildir. İran İslam Respublikası öz ərazisində geniş muxtar hüquqlara malik erməni icmasının varlığını qabartmaqla beynəlxalq miqyasda müsbət imic formalaşdırmağa çalışır. İran erməniləri Ermənistanla münasibətlərin tənzimlənməsində əhəmiyyətli rol oynayırlar.[51] Eyni zamanda erməni icması dünyanın müxtəlif ölkələrində, o cümlədən ABŞ-da, Fransada, Livanda, Suriyada təsir imkanlarına malik erməni lobbi təşkilatları və siyasi qruplarla İranın əlaqəsini təmin edir.

Geosiyasi proseslər iki ölkə arasında münasibətləri əksər

---

[51] لیزاده، ا. ، علی زاده، ش. دیاسپورای ارمانی :فرصت ها وتحدیدهای پیش روی ایران//- تهران: فصلنامه سیاست،-1394. دوره ۴۵، شماره ۴، -ص.1088.

hallarda yaxınlaşdırsa da, bəzən situativ böhranlara da səbəb olmuşdur. Təhlükəsizlik amili də iki ölkənin siyasi münasibətlərini yaxınlaşdırır. Qafqazda ABŞ, Türkiyə, İsrail kimi güclərin nüfuzunun artmasını birmənalı şəkildə rədd edən İran Ermənistanı nəzarətdə və təsir altında saxlamağa çalışır. İranın yaxın təhlükəsizlik halqasına aid etdiyi Cənubi Qafqazda, o cümlədən Ermənistanda baş verən hər hansı dəyişiklik bu ölkənin təhlükəsizliyinə təhdid yarada bilər. İran isə Ermənistan üçün xüsusən iqtisadi baxımdan təhlükəsizlik təminatçısıdır. İranın karbohidrogen ehtiyatlarını Avropaya alternativ yollarla çıxarmaq, məhsulları üçün bazarlar axtarmaq, Ermənistanın isə özünü geoiqtisadi dalandan çıxarmaq cəhdləri ikitərəfli siyasi münasibətlərə təsir göstərən iqtisadi amillərdir.

**I fəslin üçüncü paraqrafı "Münasibətlərin xarici siyasət konsepsiyaları baxımından qiymətləndirilməsi"** adlanır. Tədqiqatlardan aydın olur ki, 1979-cu ildən sonrakı dövrdə İranda xarici siyasət məsələlərinə 4 nəzəri yanaşma mövcud olmuşdur: realist, ideoloji, praqmatik və islahatçı.[52] Ermənistanın müstəqilliyini elan etdiyi illər İranın xarici siyasətdə ideoloji yanaşmadan geri çəkildiyi dövrə təsadüf etmişdir. Bu zaman İranın yeni regional xarici siyasəti baş verən geosiyasi proseslər səbəbindən sırf milli maraqlara söykənirdi və artıq inqilabı genişləndirmək tam prioritet təşkil etmirdi. Müasir mərhələdə İranın Qafqaz siyasəti əksər hallarda ideoloji deyil, realist və praqmatikdir.

Ermənistan siyasi sistem etibarilə dünyəvi dövlət olmasına baxmayaraq bəzi hallarda ideoloji alətlərdən istifadə edir. İrana münasibətdə isə Ermənistan ideoloji yanaşmadan daha çox realist-praqmatik yanaşmanı əsas götürür. Bu Ermənistanın xarici siyasətinin dualistik xarakter daşıdığı qənaətinə gəlməyə imkan verir.

I fəslin "**Siyasi-diplomatik münasibətlərin qurulması və mərhələləri"** adlı dördüncü paraqrafında isə Ermənistan-İran münasibətlərinin inkişafının xronoloji mərhələ bölgüsü aparılmışdır. Aşağıdakı mərhələlər fərqləndirilmişdir:

1. Münasibətlərin qurulması və başlıca istiqamətlərin müəyyənləşməsi mərhələsi (1991-1997-ci illər);

[52] Soltani, F. Foreign Policy of Iran after Islamic Revolution // Journal of Politics and Law, –September 2010. Vol. 3, №2, –p. 199.

2. Əlaqəli təkamül mərhələsi (1998-2008-ci illər);
3. Geosiyasi təhdidlərə qarşı yaxınlaşma mərhələsi (2008-2018-ci illər);
4. İkili siyasət mərhələsi (2018-2020-ci illər);
5. 2020-ci ildən sonrakı mərhələ.

1991-1997-ci illər münasibətlərin qurulması və geosiyasi dəyişikliklərə uyğun olaraq yaxınlaşma mərhələsi olmuşdur.[53] Bu zaman Ermənistan Azərbaycana qarşı hərbi təcavüzə və işğalçı müharibəyə başlamışdı. Ermənistan Azərbaycanın Qarabağ bölgəsindəki azərbaycanlılara – müsəlmanlara qarşı faktiki olaraq soyqırımlar və qanlı aksiyalar törədir, müsəlman dini abidələrini dağıdır, təhqirlərə məruz qoyurdu. İşğalçı ölkə Qarabağın işğalına "müqəddəslik" donu geyindirməyə çalışır, xristian ölkələri üçün bunu "məzlum xristian ermənilərin zülmkar müsəlman türklərdən qurtuluş hərəkatı" kimi təbliğ edirdi. İslam dünyasında isə müsbət imic formalaşdırmaqdan ötrü İranla münasibətlərini ön plana çıxarırdı. Təbii ki, Ermənistanla və Azərbaycan Respublikasının vaxtilə işğalda saxlanılmış əraziləri ilə həmsərhəd olan İİR şimal sərhədlərinin yaxınlığında baş verən proseslərdən xəbərdar idi. 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında Bişkek protokolunun qəbulu, mayın 16-da Moskvada Rusiya, Ermənistan və Azərbaycan müdafiə nazirləri arasında atəşin tamamilə dayandırılmasına dair müzakirələrin aparılmasına qədər[54] İran bölgədə vəziyyətin sabitləşməsi üçün bir neçə dəfə cəhdlər göstərmişdi. Lakin bu cəhdlər nəticəsiz qalmışdı. İİR-in vasitəçiliyi ilə əldə olunan razılaşmalardan sonra Ermənistan hər dəfə daha qanlı əməliyyatlar həyata keçirmiş, yeni ərazilər işğal etmişdir.

Həmin illərdə İranla Ermənistan arasında siyasi, iqtisadi, dini və etnik zəmində münaqişə yaşanmamış, lakin bəzi kiçik qarşıdurmalar baş vermişdir. İki ölkənin siyasi rəhbərliyi münasibətlərin gücləndirilməsi üçün bütün imkanları dəyərləndirmiş,

---

[53] Kalbizada, E.H. Armenian policy of the Islamic Republic of Iran after 1991: geopolitical conditions and realities // –Vienna: Austrian Journal of Humanities and Social Sciences, –2020. № 5-6, –p. 4.

[54] Əhmədov, E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti: [3 clddə] / E.İ.Əhmədov. –Bakı: ARPEİF, –2015. –c. III,–s. 48-49.

xüsusilə nəqliyyat və enerji sahəsində bir sıra layihələr həyata keçirilmişdi.[55]

İkinci mərhələ Ermənistanın ikinci prezidenti Robert Koçaryanın hakimiyyəti illərinə (1998-2008) təsadüf etmişdi. Bir sıra tədqiqatçılar tərəfindən Ermənistanın xarici siyasətində bu illər "əlaqəli təkamül" dövrü kimi xarakterizə edilir.[56] Bu mərhələdə Ermənistan regionda Rusiya-İran cütlüyü ilə yanaşı, ABŞ və Avropa dövlətləri ilə də əlaqələrini tədricən inkişaf etdirməyə çalışmış, lakin Moskvanın təsirindən çıxa bilməmişdir. İİR bölgədə cərəyan edən proseslərə uyğun olaraq Ermənistanla münasibətlərini daha da yaxınlaşdırmağa çalışırdı. Xüsusən, 2001-ci ildən sonrakı illərdə İranın bu istiqamətdə cəhdləri daha da artmışdır.

Aparılan təhlillərdən aydın olur ki, həmin illərdə bəzi hallarda Ermənistanın ABŞ və Avropa dövlətlərinin İrana qarşı sanksiyalarını dəstəkləməməsi bu ölkənin İrana sədaqətindən və ya qonşularla həmrəylik siyasətindən irəli gəlmirdi. Bu cür vacib və gərgin məqamlarda qərarı Ermənistanın yerinə geosiyasi maraqlarına uyğun olaraq Rusiya vermişdi. Bəzi müəlliflər İrana qarşı tətbiq edilən sanksiyaları həm də Ermənistanın iqtisadi təhlükəsizliyinə təhdid kimi qiymətləndirirlər.[57] Bu baxımdan həqiqətən də İrana qarşı əvvəllər tətbiq olunmuş beynəlxalq siyasi və iqtisadi sanksiyaların Ermənistana mənfi təsirləri müşahidə edilmişdir.

Beləliklə, bəhs olunan illərdə Ermənistan-İran əlaqələrinin təhlili göstərir ki, o zaman regionda geosiyasi dəyişikliklər əlaqələrin sıxlaşmasını şərtləndirmişdir. İrimiqyaslı regional və qlobal layihələrdən kənarda qalmaları Ermənistan və İranın alternativ layihələr həyata keçirmək iddialarını ortaya çıxarmışdır. Həmin illərdə Ermənistan

[55] Kalbizada, E.H. New Caucasus policy of the Islamic Republic of Iran after 1991 and Armenia // V Міжнародної конференції «Весняні наукові читання», – Київ: Центр наукових публікацій, –30 квітня, –2020. 2 частина, –с. 41.

[56] Talıblı, S.Ə. İranın Qafqaz siyasətində Ermənistan (1991-2006-cı illər): [Elektron resurs] / Blogcatalog, –28 oktyabr, 2016. URL: www.blogcatalog.com /s-ubhan-talibli-iranin-qafqaz/.

[57] Markarov, A. The main dimensions and issues of Armenia's foreign security policy // Values and identity as souerces of foreign policy in Armenia and Georgia / A.Markarov, N.Galstyan, G.Hayrapetyan. –Tbilisi: Universal PH, –2016. –p. 109-110.

üzərində Rusiya nəzarəti daha da güclənmiş, bu isə öz növbəsində İran-Ermənistan münasibətlərinə təsirini göstərmişdir. İrana qarşı tətbiq edilən sanksiyalara Ermənistanın münasibəti əsasən Rusiyanın mövqeyi ilə müəyyənləşmişdir.

2008-2018-ci illəri əhatə edən üçüncü mərhələdə geosiyasi proseslər iki dövlətin əlaqələrinin daha da sıxlaşmasına gətirib çıxarmışdır. Belə ki, 2008-ci ildə Rusiya və Gürcüstan arasında baş verən hərbi münaqişə Ermənistanın bu ölkə ilə Gürcüstan üzərindən qurduğu iqtisadi-tranzit əlaqələrə mənfi təsir göstərdi.[58]

Geosiyasi təhdilərə qarşı yaxınlaşma mərhələsində iki dövlət arasında siyasi münasibətlərinin tədqiqi bir sıra nəticələrə gəlməyə imkan verir. Aydın olur ki, münasibətərin qurulması (birinci) və əlaqəli təkamül (ikinci) mərhələlərindən fərqli olaraq bu mərhələdə münasibətlər heç də həmişə yüksələn xətlə inkişaf etməmişdir, lakin geosiyasi şərtlərin təsiri altında məhz bu dövrdə iki ölkə arasındakı münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə gəlib çatmışdı. 2012-ci və 2014-cü illər Ermənistan-İran münasibətləri tarixinə situativ böhran illəri kimi daxil olmuşdur. Azərbaycan-İran və Ermənistan-İran münasibətləri arasında korrelyasiya əlaqəsi bu xronoloji çərçivədə özünü açıq şəkildə göstərmişdir.

**“Siyasi münasibətlərin mövcud vəziyyəti, institusional əlaqələr və problemlər”** adlanan II fəsil dörd paraqrafdan ibarətdir.

“**Siyasi münasibətlərin mövcud vəziyyəti və problemləri”** adlı **birinci paraqrafında** qeyd olunur ki, Ermənistanla İran arasında 2018-ci ildən sonrakı mərhələni “qeyri-səmimi yaxınlaşma” və ya ikili xarici siyasət mərhələsi adlandırmaq olar. Bu mərhələdə Ermənistan İİR-lə münasibətlərə nisbətən ABŞ və Avropa ölkələri ilə münasibətlərə daha çox diqqət verdiyini nümayiş etdirirdi. Ermənistanda 2018-ci ildə baş verən “məxməri çevriliş” nəticəsində hakimiyyətə gələn Nikol Paşinyanın ABŞ başda olmaqla Qərb ölkələrinin dəstəyini qazanmağa çalışması, Rusiya ilə strateji münasibətlərdə bir sıra dəyişikliklər etməsi İranla da əlaqələrə təsir edirdi. Baş nazir Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra İran İslam Respublikası Prezidenti Həsən Ruhani ilə ilk

---

[58] Kelbizadeh, E.H. The Dynamics of the devolopment of Armenian-Iranian relations in the post-soviet period // –Махачкала: История, археология и этнография Кавказа, –2019. Т. 15, № 4, –с. 644.

görüşünü belə ABŞ-da - Nyu-York şəhərində keçirmişdi.[59]

Ermənistanla Azərbaycan arasında 2020-ci ilin sentyabr-noyabr ayları ərzində baş verən 44 günlük müharibədə Ermənistanın ağır məğlubiyyətindən, regionda geosiyasi şəraitin dəyişməsindən sonra Ermənistan-İran münasibətlərində yeni bir mərhələ başlamışdır. Azərbaycanın gücünün və nüfuzunun sürətlə yüksəlməsi Ermənistan qədər İrandakı bir sıra siyasi qüvvələri, xüsusən mühafizəkar xəttin tərəfdarlarını ciddi şəkildə narahat edirdi. İran Ermənistanın 10 noyabr üçtərəfli bəyanatına əsasən açmağı öhdəsinə götürdüyü nəqliyyat və kommunikasiya xətlərinin dəhliz formatında açılmasına - Zəngəzur dəhlizinin yaradılmasına qəti şəkildə qarşı çıxırdı. İrandakı bir sıra siyasi qruplar hesab edirdilər ki, bu dəhlizin açılması İranı bir çox iqtisadi gəlirlərdən məhrum edə bilər, beynəlxalq tranzit yollarının bu istiqamətə yönəlməsinə, İrandan keçən müəyyən yolların əhəmiyyətini itirməsinə gətirib çıxara bilər. Həmin qruplar Zəngəzur dəhlizinin açılmasını İsrailin layihəsi adlandırır, bu prosesi bilərəkdən təhrif edərək guya Ermənistanın suverenliyinin pozulması və İranla-Ermənistan arasında əlaqələr üçün əhəmiyyətli olan ərazilərin ələ keçirilməsi kimi təqdim edirdilər.

Bir müddət sonra Ermənistanın Qərbmeyilli xarici siyasət xəttini yenidən gücləndirməsi, xüsusən ABŞ-la birgə hərbi təlimlər keçirməsi təkcə Rusiyanın deyil, İranın da ciddi narazılığına səbəb olmuşdur.

Maraqlıdır ki, İranın regionda yaranmış yeni geosiyasi şəraitdə bir sıra məsələlərlə bağlı mövqeyi Rusiyadan daha çox, regiona təsir imkanlarını gücləndirməyə çalışan Fransa ilə üst-üstə düşür. Yeni bir vəziyyət yaranır. İran da Rusiya və Türkiyə kimi ABŞ-ın regionda, o cümlədən Ermənistan üzərində təsirlərinin artmasını istəmir və hazırki Ermənistan hakimiyyətinin bu istiqamətdə addımlarına soyuq yanaşır. Digər tərəfdən Türkiyənin və Azərbaycanın regionda nüfuzunun hədsiz güclənməsindən narahatdır və bunun qarşısını Ermənistana müxtəlif formalarda diplomatik-siyasi, eləcə də hərbi dəstək verməklə almağa çalışır. İranın Ermənistan sərhədlərini özünün “qırmızı xətti” elan etməsi onun ərazisindən kənardan keçəcək “Orta yol” layihəsinə (onun

---

[59] Kəlbizadə E.H. Ermənistan İran İslam Respublikasının Qafqaz siyasətində /E.H.Kəlbizadə, Y.Ü.Baxşıyeva, Ə.Ə.Əzimov; -Bakı:MTM İnnovation, -2019. - s. 157-158.

bir parçası olan Zəngəzur dəhlizinə) qarşı olması ilə bağlıdır. Rusiya isə özünün ərazisindən keçən Şimal yoluna alternativ olan "Orta yol" üzərində təsirini təmin etmək üçün dəhlizin Zəngəzurdan açılmasında və "Orta yol"un bu hissəsi üzərində özünün nəzarətinin olmasında maraqlıdır. Bununla bağlı İran hətta Azərbaycana bir sıra alternativ təkliflərlə də çıxış etmişdir. Lakin Ermənistanla münasibətləri sürətlə sıxlaşdıran İbrahim Rəisi 2024-cü ilin aprel-may aylarında Azərbaycanla əlaqələrdə soyuqluğu aradan qaldırmaq istiqamətində atdığı addımlardan sonra müəmmalı şəkildə helikopter qəzasına düşdü.

Növbədənkənar seçkilərdə əslən azərbaycanlı və islahatçıların nümayəndəsi olan Məsud Pezeşkiyanın hakimiyyətə gəlməsi İran-Ermənistan münasibətlərində müəyyən dəyişikliklərə səbəb oldu. İran dövlət aparatında yer alan mühafizəkar qüvvələrin ciddi-cəhdlə Ermənistanla əlaqələri sıxlaşdırmağa çalışmalarına baxmayaraq, M.Pezeşkiyan Ermənistana kifayət qədər məsafəli və soyuq davranır. Heç də təsadüfi deyildir ki, 2024-cü il iyulun 30-da keçirilən andiçmə mərasimində iştirak etmək üçün Tehrana gəlmiş Ermənistanın Baş naziri N.Paşinyanla görüşdə M.Pezeşkian ikitərəfli əlaqələri yalnız "mümkün olduğu qədər" gücləndirəcəyini demişdi.[60]

**II fəslin ikinci paraqrafı "Təhlükəsizlik və müdafiə sahəsində əlaqələr"** adlanır. Burada qeyd edilir ki, müstəqilliyini elan etdikdən sonra hərbi təhlükəsizliyini təmin etmək üçün NATO ilə qismən, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə isə sıx əməkdaşlıq edən Ermənistan bu istiqamətdə İranın imkanlarından da faydalanmağa çalışmışdır. 2020-ci ildə Azərbaycanla Ermənistan arasında baş verən 44 günlük müharibədən sonra Azərbaycan-İran münasibətlərində yaşanan gərginliklər hərbi və təhlükəsizlik sahəsində Tehran-İrəvan əməkdaşlığını gücləndirmişdir. Əvvəllər Ermənistanla əməkdaşlığının üçüncü dövlətə qarşı yönəlmədiyini bəyan edən, bu əməkdaşlığının sadəcə ümumi hərbi təchizat məsələləri ilə bağlı olduğunu vurğulayan İran bu istiqamətdə siyasətini tamamilə dəyişmişdir. Müharibə dövründə Azərbaycan ordusunun Türkiyə və İsrail istehsalı olan pilotsuz uçuş aparatlarından aktiv istifadəsi Ermənistan və İran arasında bu sahədə əməkdaşlığın gücləndirilməsinə

[60] Iran's Policy On Armenia Unchanged, Says New FM: [Digital resource] / Azatutyun, -August 23, 2024. URL: www.azatutyun.am/a/33090278.html

səbəb olmuşdur. 2022-ci ilin avqustunda İranın İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Kaşanda keçirilən iki həftəlik pilotsuz uçuş aparatları təlimlərinə Belarus və Rusiya ilə yanaşı Ermənistandan olan hərbi mütəxəssisləri cəlb etməsi də fikirlərimizi bir daha təsdiqləyir.[61] Qeyd etmək lazımdır ki, 2022-ci ilin oktyabrında SEPAH-ın sabiq komandanı və İranın ali dini liderinin hərbi məsələlər üzrə müşaviri general-mayor Yəhya Rəhim Səfəvi İran istehsalı olan hərbi pilotsuz təyyarələrin alınması üçün rəsmi müraciət etmiş 22 ölkə arasında Ermənistanın adını ilk sırada çəkmişdi.[62] İran pilotsuz uçuş aparatlarına, xüsusən "Shahed – 136" PUA-larına maraq Rusiya-Ukrayna müharibəsində onların tətbiq edilməsindən sonra artmışdı. Digər bir məlumata görə həmin vaxt SEPAH Ermənistana 500 ədəd Dehlavieh tank əleyhinə raket kompleksi və 100 ədəd Almas sistemi vermişdi.[63]Məsud Pezeşkiyanın hakimiyyətə gəlməsindən sonra isə hərbi əməkdaşlıq sahəsində də müəyyən dəyişikliklər baş vermişdir. Belə ki, 2024-cü ilin noyabrın 24-25-i tarixlərində Ərdəbil ostanının Aslandüz yaşayış məntəqəsi yazınlığında Azərbaycan Respublikası və İran İslam Respublikası xüsusi təyinatlı hərbiçilərinin iştirakı ilə Araz Birgə Təlimləri keçirilmişdi.

Son dövrlərdə baş verən bəzi proseslərə baxmayaraq, İran və Ermənistanın Cənubi Qafqazdakı hərbi-təhlükəsizlik maraqlarında kifayət qədər üst-üstə düşən məqamlar vardır. İİR-in Qafqazdakı xarici siyasəti hərbi və təhlükəsizlik baxımından müdafiə realizminə əsaslanır. İran mövcud vəziyyətdə Ermənistanda aşkar yeganə hegemon qüvvəyə çevrilmək imkanından məhrum olduğunu dərk

---

[61] Iran Hosts Drone Tournament with Russia, Belarus and Armenia: [Digital resource] / Iran Watch, – August 15, 2022. URL: www.iranwatch.org/news-brief/iran-hosts-drone-tournament-russia-belarus-armenia.

[62] 22 countries requested to purchase Iran military drones, official says: [Digital resource] / Middle East Monitor, –October 16, 2022. URL: www.middleeastmonitor.com/20221019-22-countries-requested-to-purchase-iran-military-drones-official-says/?fbclid=iwar3jl0zul2lzs_ubsxtomro64zceqln8jjylpwv csl vomjbzm6v-wsskfm0

[63] Huseynov, V. Armenia and Iran combine forces against Azerbaijan: [Digital resource] / –Modern diplomacy, –December 11, 2022. URL: https://moderndiplomacy.eu /2022/12/11/armenia-and-iran-combine-forces-against-azerbaijan/

edir. Buna görə də bu ölkə üzərində mövcud gücünü və təsirlərini qorumağa çalışır. Ermənistan isə İranın təhlükəsizlik məsələsinə yanaşmasını və narahatlıqlarını qiymətləndirərək bundan özünün mənafeləri naminə istifadə etməyə çalışır.

**II fəslin "Beynəlxalq təşkilatlar və çoxtərəfli platformalar çərçivəsində əməkdaşlıq"** adlanan üçüncü paraqrafında yazılır ki, İran və Ermənistanın hər ikisinin tamhüquqlu üzv olduğu yalnız bir beynəlxalq təşkilat vardır ki, bu da BMT-dir. Ermənistan beynəlxalq təşkilatlar çərçivəsində bəzi hallarda İrana nüvə proqramı ilə bağlı məsələlərdə dəstək nümayiş etdirmişdir.[64] Hər iki ölkənin uzun müddət fəal iştirak etdiyi təşkilat Avrasiya İqtisadi İttifaqı olmuşdur. Ermənistan təşkilatın tamhüquqlu üzvüdür. İran isə təşkilatda müşahidəçi statusuna malikdir və onunla fəal əməkdaşlıq edir.

Məlumdur ki, ABŞ başda olmaqla bir sıra Avropa ölkələrinin sanksiyalarına məruz qalan İran və uzun illər Azərbaycan ərazilərini işğal etməsi səbəbindən regional layihələrdən kənarda qalan Ermənistan müxtəlif dövrlərdə digər alternativ çoxtərəfli əməkdaşlıq platformaları (Türkmənistan – İran – Ermənistan, Yunanıstan – Ermənistan – İran, Ermənistan – İran – Hindistan) yaratmaq və bu çərçivədə əməkdaşlığı inkişaf etdirmək üçün cəhdlər göstərmişlər. Türkmənistan – İran – Ermənistan formatında əməkdaşlığın əsasları 2020-ci ildən sonra ən müxtəlif amillərin təsiri altında xeyli dərəcədə sarsıdılmışdır. Burada Azərbaycan və Türkiyənin də əhəmiyyətli dərəcədə rolu vardır. Yunanıstan-Ermənistan-İran platforması əslində "türkə nifrət psixologiyası"ndan başqa əsası olmayan bir əməkdaşıq cəhdidir. ABŞ-ın Yunanıstan üzərində təsirlərinin güclənməsi, İranla-Yunanıstan arasında neft tankerləri ilə bağlı yaranmış problemlər[65] bu platforma çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsini də bloklamışdır.

Son illərdə Ermənistan-İran-Hindistan əməkdaşlıq platforması daha çox diqqəti cəlb edir. Hindistan Çin – Orta Asiya – Azərbaycan – Gürcüstan (Ermənistan) Türkiyə marşrutuna (Orta dəhliz) alternativ

---

[64] Месамед, В.И. Иран и немусульманские страны Южного Кавказа (Армения и Грузия) / В.И. Месамед. –Москва, –2015. –с. 82.

[65] Iran urges Greece to resolve oil tanker crisis without US involvement: [Digital resource] The Cradle, -2022. URL: https://thecradle.co/articles-id/3854.

olaraq yeni bir xətt formalaşdırmağa çalışır. Bu Hindistan – İran – Ermənistan – Gürcüstan – Qara dəniz xəttidir. Hərbi təhlükəsizlik baxımından isə Pakistan – Azərbaycan – Türkiyə oxuna qarşı Hindistan – İran-Ermənistan oxu formalaşır.

2020-ci il müharibəsindən sonra Azərbaycan və Türkiyə tərəfindən təklif olunan 3+3 (Türkiyə, İran, Rusiya + Azərbaycan, Ermənistan, Gürcüstan) formatında əməkdaşlığa da həm İran, həm də Ermənistan tərəfindən maraq göstərilir.

**II fəslin dördüncü paraqrafı "Parlamentlərarası əlaqələr"** barədədir. Bu paraqrafda iki başlıca istiqamətə - parlament diplomatiyasına və erməni deputatların İslami Şura Məclisindəki fəaliyyətlərinə diqqət yetirilmişdir. Parlamentlərarası əlaqələrin formalaşması əsasən XX əsrin 90-cı illərinin ikinci yarısına təsadüf edir. İrandan Ermənistana parlament heyətlərinin ilk səfərlərindən biri 1995-ci ilin avqustunda olmuşdur. Hazırda hər iki ölkənin parlamentində parlamentlərarası dostluq qrupları fəaliyyət göstərir. Ermənistanda 2021-ci ildə keçirilmiş növbədənkənar parlament seçkilərindən sonra formalaşmış Ermənistan-İran parlamentlərarası dostluq qrupunun tərkibi 18 nəfərdən ibarətdir. Qrupa "Vətəndaş müqaviləsi" fraksiyasından Gevorq Papoyan sədrlik edir.[66]

İran İslami Şura Məclisində də İran-Ermənistan parlamentlərarası dostluq qrupu fəaliyyət göstərir. Qrupun tərkibinə 13 məclis üzvü daxildir. İslami Şura Məclisinin 10-cu çağırışında dostluq qrupunun sədri Ramazan Əli Sobhanifər olmuşdur. Parlamentə Xorasan Rəzəvi əyalətindən seçilmişdir.[67] Qrupun tərkibinə parlamentdə Şimali İran ermənilərinin təmsilçisi olan Karen Xanlari və Cənubi İran ermənilərinin təmsilçisi olan Corcik Abramyan da daxil olmuşdur.

Tədqiqatlar sübut edir ki, hər iki dövlətin siyasi rəhbərliklər səviyyəsində ifadə edə bilmədikləri və ya ifadə etmək istəmədikləri

---

[66] Friendship Groups of the National Assembly of the Republic of Armenia. Friendship Group Armenia-Iran: [Digital resource] / The official site of National Assembly of the Republic of Armenia, –2020. URL: www.parliament.am/international.php?id=4&lang=eng

[67] Sobhanifar Ramazan Ali: [Digital resource] / The official site of Islamic Parliament of Iran, –2020. URL: https://en.parliran.ir/eng/en/Content/_/Sobhani-far-Ramezan-ali54684.

fikirləri, bəyanatları məhz parlament üzvlərinin vasitəsi ilə açıqlayır, bəyan edirlər. İranın İslami Şura Məclisindəki erməni deputatlar milli və dini məsələlərlə bağlı xaricdən İrana qarşı yönəlmiş təzyiqlərdə "qalxan" rolunu oynayırlar. Müxtəlif milli və dini qrupların hüquqlarının pozulması ilə bağlı səsləndirilən fikirlərə qarşı erməni deputatların varlığı əks dəlil kimi göstərilir. İslami Şura Məclisinin erməni nümayəndələrinin xüsusi fəaliyyət istiqamətlərindən birini Azərbaycan və Türkiyəyə qarşı təbliğati fəaliyyətin həyata keçirilməsi təşkil edir. Bu baxımdan dövri olaraq erməni nümayəndələr tərəfindən saxta "soyqırımı" məsələsi gündəmə gətirilir.[68]

Son dövrlərdə parlamentlərarası əlaqələrin inkişafı ilə bağlı təşəbbüslər artmışdır. 2024-cü ilin oktyabrında İran və Ermənistan parlamentlərarası əməkdaşlığın müxtəlif səviyyələrdə genişləndirilməsi, hər iki ölkənin parlamentləri daxilində dostluq qrupları və ixtisaslaşdırılmış komitələrin fəaliyyətinin gücləndirilməsi ilə bağlı razılıq əldə etmişlər.[69] Təhlillər göstərir ki, İranda islahatçı və azərbaycanlı prezident Məsud Pezeşkiyanın hakimiyyətə gəlməsindən sonra Ermənistanın mühafizəkarların güclü olduğu İran parlamenti ilə əlaqələrinin inkişaf etdirilməsi heç də təsadüfi deyildir. Unutmamaq lazımdır ki, İslami Şura Məclisinin sədri Məhəmməd Bager Qalibaf keçirilən son prezident seçkilərində Məsud Pezeşkiyanın iki əsas rəqibindən biri olmuşdu.

Dissertasiya işinin **III fəsli "Ticarət-iqtisadi əməkdaşlığın əsas istiqamətləri, mövcud vəziyyəti və perspektivləri"** adlanır. Fəslin **"Ticarət-iqtisadi əlaqələrin qurulması"** adlanan **birinci paraqrafında** qeyd olunur ki, iki ölkə arasında iqtisadi sahədə əməkdaşlığı şərtləndirən əsas amillər sanksiyalardan və təcriddən qurtulmaq istəyi, tranzit imkanları, xarici sərmayələrin cəlbi və s. olmuşdur. Ermənistan İranla iqtisadi əlaqələrini inkişaf etdirməklə bir neçə məqsədə çatmağa çalışır. İlk məqsədlərdən biri Fars körfəzi

[68] Kalbizada, E.H. İslamî Şûra Meclisi Ermeni Milletvekillerinin Sözde "Ermeni Soykırımı"nı Tanıtma Girişimlerinin İran'ın İç ve Dış Politikasına Etkisi // XIX. Türk Tarih Kongresi, –Ankara: TTK, –3-7 Ekim, 2022, –2024, –s. 729-744.

[69] Iran, Armenia agree to strengthen parliamentary cooperation // The Tehran Times, -October 06, 2024. –s. 1-2.

vasitəsi ilə dünya okeanına çıxış imkanlarının təmin edilməsidir. Ermənistanda istehsal edilən bir sıra məhsulların İran bazarına çıxarılması və çatışmayan məhsulların bu bazarlar vasitəsi ilə təmin edilməsi də Ermənistanın İranla iqtisadi əlaqələr qurmaq ehtiyacını artırır. Həmçinin Ermənistan İranın təcrid şəraitində inkişaf təcrübələrini öyrənməyə və bundan yararlanmağa çalışır. İran Ermənistan iqtisadiyyatına sərmayələrin yatırılması sahəsində öncül dövlətlərdən biridir. Bundan Ermənistanı təsir altında saxlamaqdan ötrü vasitə kimi istifadə edilir. Bununla yanaşı İran ölkədə yaşayan ermənilər və Ermənistanın təsir imkanlarından istifadə etməklə digər ölkələrdən xarici sərmayələrin cəlb edilməsinə çalışır.[70] İran İslam Respublikası müxtəlif sahələrdə Ermənistanla iqtisadi əlaqələr qursa da, sərmayələrin yatırılması məsələsinə nisbətən ehtiyatla yanaşmış, bunun üçün Ermənistanda iqtisadiyyata nəzarət mexanizmləri ilə bağlı islahatların aparılmasının vacibliyini ön şərt olaraq irəli sürmüşdür.

**III fəslin "İqtisadi əməkdaşlığın əsas istiqamətləri"** adlı **ikinci paraqrafında** qeyd olunur ki, iki ölkə arasında enerji sahəsində əməkdaşlıq məsələləri əsasən Ermənistanın maraqlarına cavab verir. İranın Ermənistanla enerji sahəsində əməkdaşlıqda əsas məqsədi hasil etdiyi təbii qazı Ermənistan və Gürcüstan üzərindən keçirməklə Avropa ölkələrinə nəql etməkdir. Lakin İran-Ermənistan-Gürcüstan qaz dəhlizinin hazırkı geosiyasi şəraitdə heç bir perspektivi yoxdur. Çünki təbii qaz Gürcüstana daşınsa belə onun Avropaya yola salınması üçün ehtimal olunan üç variant vardır, bunların reallaşdırılması mövcud imkanlar xaricindədir. Birinci variantda Qara dənizin altından olduqca bahalı qaz kəməri çəkilməlidir. Hazırki şəraitdə nə İranın, nə Ermənistanın, nə də Gürcüstanın bunun üçün yetərli maliyyə imkanları var. İkinci variantda həmin kəmər Rusiyanın qaz-nəqliyyat infrastrukturuna birləşdirilməlidir. Bu isə mümkün görünmür. Kifayət qədər qaz resurslarına malik Rusiyaya əlavə qaz lazım deyil, onun məqsədi öz qazını Avropaya inhisarçı olaraq nəql etdirməkdir. Hazırki şəraitdə isə Rusiya-Ukrayna müharibəsi səbəbindən rus təbii qazının Avropaya nəqli mümkünsüz

---

[70] وليزاده، ا. ، على زاده، ش. دياسپوراى ارمانى :فرصت ها وتحديدهاى پيش روى ايران//- تهران: فصلنامه سياست،-1394. دوره ۴۵، شماره ۴، -ص. 1085-1086

hala gəlmişdir. Rusiyanın özü qazını dünya bazarına çıxarmaq üçün alternativ ölkələrin imkanlarından faydalanmağa çalışır. Üçüncü variantda Gürcüstanın Qara dəniz limanlarının birində təbii qazı maye qaza (LNG) çevirmək üçün infrastrukturu yaradılmalıdır ki, bu da həddindən artıq baha başa gəlir. Maye qaz əldə edilsə belə onun gəmi və tankerlər vasitəsilə daşınması İstanbul boğazları ilə reallaşmalıdır. Bu isə Türkiyənin həm ekoloji təhlükəsizliyinə, həm də strateji maraqlarına təhdid yaradır. Aydındır ki, İran, Ermənistan və hətta bəzi hallarda Gürcüstanın İran-Ermənistan-Gürcüstan qaz kəməri ilə bağlı səsləndirdikləri fikirlər iqtisadi əhəmiyyətli deyil, siyasi konyuktura üçün istifadə olunur.

Sənaye, kənd təsərrüfatı və turizm sahələrində əməkdaşlığın vəziyyətinin tədqiqi də bir sıra maraqlı məsələləri üzə çıxarır. 2022-ci ildə Ukrayna ilə müharibəyə başlayan Rusiyanın Ermənistan üzərində də təsirlərini tədricən itirməsi iqtisadi baxımdan da bir sıra dəyişikliklərin baş verməsinə gətirib çıxarmışdır. İran şirkətləri isə bu məqamı fürsət kimi dəyərləndirmiş və sürətlə Ermənistan bazarına daxil olmağa başlamışlar. Qısa zamanda İran investisiyaları əsasında Ermənistanda fəaliyyət göstərən şirkətlərin sayı artmış. İran bu göstəriciyə görə Rusiyadan sonra ikinci yerə yüksəlmişdir. Təkcə 2023-cü ilin birinci yarısında Ermənistanda İran kapitallı 300-ə yaxın şirkət yaradılmışdır. Hazırda iki ölkə arasında illik ticarət dövriyyəsi 800 milyon dollara yaxındır.[71]

İki ölkənin əməkdaşlığı dərinləşdirmək istədikləri əsas istiqamətlərdən biri yüksək texnoloji sənayedir. İrəvanda 2021-ci il fevral ayının 17-də yüksək texnologiyalara və startaplara həsr olunmuş İran sərgisi keçirilmiş, burada çıxış edən İranın Ermənistandakı səfiri Abbas Zohouri ölkəsinin Ermənistanla bu sahədə əməkdaşlığı dərinləşdirmək istədiyini demişdi.[72]

Kənd təsərrüfatı sahəsində əlaqələr yetərincə inkişaf etmişdir.

---

[71] About 300 companies with Iranian capital opened in Armenia in the first half of 2023 – minister: [Digital resource] / –Yerevan: Arkanews, –August 25, 2023. URL: https://arka.am/en/news/business/about_300_companies_with_iranian _capital_opened_in_armenia_in_the_first_half_of_2023_minister/

[72] Armenia, Iran aim at deepening cooperation in high-tech industry: [Digital resource] / –Yerevan: Armenpress, –February 17, 2021. URL: https://armenpress.am/ eng/news/1043699.

İrana qarşı beynəlxalq iqtisadi sanksiyaların gücləndirilməsindən sonra bu ölkədən Ermənistana heyvandarlıq məhsullarının, xüsusən qoyunların ixracında artım müşahidə edilməyə başlamışdı.

İslam Respublikasından Ermənistana şəxslərin çoxu əslində turizm məqsədli deyil, tranzit ölkə kimi gedir. Yəni Ermənistan ərazisindən üçüncü ölkələrə keçid üçün istifadə edirlər. Başqa bir məsələ İran İslam Respublikasının düşmən hesab etdiyi ABŞ-la bağlıdır. ABŞ-a getmək istəyən İran vətəndaşları vizaları ABŞ-ın Ermənistandakı səfirliyi vasitəsi ilə alırlar. Ermənistan isə rəsmi statistikada bu cür şəxsləri turist kimi göstərir. İrandan Ermənistana səfər edən ikinci qrup isə İran erməniləridir. Onların Ermənistan ərazilərinə turzim məqsədli səfərləri əsasən Ermənistanın müstəqilliyini elan etməsindən sonrakı ilk illərdə olmuşdur. İranın qeyri-erməni vətəndaşlarını Ermənistana cəlb edən xüsusi məqam da var. Bu xüsusi məqam müsəlman ölkələrində qadağan olunan və yaxud əhali tərəfindən qəbul edilməyən bəzi fəaliyyət növlərinə Ermənistanda rahat şəraitin yaradılmasıdır.

1991-ci ildən etibarən ticarət əlaqələrinin inkişafı Ermənistan və İran arasında danışıqların əsas istiqamətlərindən biri olmuşdur. Ermənistan daima iki ölkə - İran və Gürcüstan vasitəsi ilə nəqliyyat və kommunikasiya əlaqələrini gücləndirmək ehtiyacını hiss etmişdir. Uzun müddət Ermənistanın cənub qonşusu İranla sərhədi yeganə etibarlı sərhəd hesab edilmişdir. Ermənistan Trans-Avrasiya fiberoptik xəttinə məhz İran vasitəsilə qoşulmuşdur.[73]

Ermənistanla İran arasında sərhəd keçid məntəqələrinin, azad ticarət zonalarının yaradılması, tranzit və viza məhdudiyyətlərinin aradan qaldırılması istiqamətində xeyli tədbirlər həyata keçirilmişdir. Ermənistan özünü bir sıra İran məhsulları, o cümlədən kimya sənayesi məhsulları üçün cəlbedici satış bazarı kimi göstərməkdədir.

**III fəslin "Ermənistan iqtisadiyyatında İran investisiyaları"** adlanan **üçüncü paraqrafında** qeyd olunur ki, İran İslam Respublikası müxtəlif sahələrdə Ermənistanla iqtisadi əlaqələr qursa da, sərmayələrin yatırılması məsələsinə nisbətən ehtiyatla yanaşmışdır. Bu həm də obyektiv amillərlə bağlı olmuşdur. Aparılan təhlillər həmin amilləri

[73] Ermənistan Respublikası (məlumat sorğu kitabçası) / Redaktorlar E.Əliyev və Y.Yaqubov. –Bakı: Qesam, Bölgə silsiləsindən I buraxılış. –s. 9.

aşağıdakı kimi müəyyənləşdirməyə imkan verir:

1. İran iqtisadiyyatının özü ciddi investisiyaya ehtiyacı vardı / var.
2. İranda əsas fondların köhnəlməsi / aşınması problemi mövcud idi / mövcuddur.
3. İran tərəfi öz investisiya siyasətini sırf siyasi / geosiyasi layihələrə yönəldir. İranın Suriya və İraqdakı fəaliyyətinin təhlili qeyd olunan məqamı bir daha sübut edir.
4. İran iqtisadiyyatı, o cümlədən maliyyə-bank sektoru dövlət və kvazi-dövlət qurumlarının nəzarətindədir. Bu investisiya siyasətinə ciddi təsir göstərir. Adətən dövlət zəmanətli yatırım sxemləri üzərində işlənilir. Bu ölkədə şəxsi kapital isə kiçik və orta sahibkarlıq, xüsusən də ticarət sektorunda üstün olsa da, onun investisiya potensialı həcm baxımından ciddi əhəmiyyət daşımır.
5. İranı (xüsusilə İranın dövlət korporasiyalarını) maraqlandıra biləcək sektorların Ermənistanda Rusiya idarəçiliyinə keçməsi sərmayə mühitinə ciddi təsir göstərirdi / göstərir.

Bu fəsildə aparılan təhlillər belə bir qənaətə gəlməyə imkan verir ki, iqtisadi sahədə əlaqələrin gücləndirilməsi üçün atılan bütün addımlar əsasən Ermənistanın maraqlarına xidmət edir. Ermənistan həm öz iqtisadi imkanlarına, həm bazarının həcminə görə İran üçün təbii cəlbediciliyə sahib deyildir. İran tərəfinə aydındır ki, Ermənistan vasitəsilə reallaşdırmağa çalışdığı regional layihələr ya iqtisadi cəhətdən faydasız, ya da obyektiv və subyektiv səbəblər ucbatından mümkünsüzdür.

Dissertasiya işinin **IV fəsli "Elm, təhsil, səhiyyə və mədəniyyət sahələrində əməkdaşlıq"** adlanır. Fəslin **"Humanitar sahələrdə əməkdaşlıq"** məsələlərinə həsr olunmuş **birinci paraqrafında** qeyd olunur ki, humanitar sahədə əməkdaşlığın inkişafı üçün iki ölkə tərəfindən müxtəlif təşəbbüslər göstərilir, addımlar atılır. Ermənistanda fars dilinin tədrisi məsələləri İran dövləti tərəfindən diqqətdə saxlanılır. Bu ölkədə 10-a yaxın orta məktəbdə fars dilinin tədrisi həyata keçirilir.[74] Fars dilini mənimsəyən ermənilərdən sonradan ən müxtəlif

---

[74] نظام آبادی، م. روابط فرهنگی ایران و ارمنستان: ظرثیت‌ها و پتانسیل‌ها// -تهران: قصلنامهانجمن ایرانی مطالعات فرهنگی و ارتباطات، -1395، سال دوازدهم، شماره ۱۴۴، ص. 78.

məqsədlərlə istifadə edilir. Ermənistan da erməni dilinin İranda tədrisi məsələlərində maraqlıdır. İranda əhalisi milyonlarla olan xalqların nümayəndələri üçün anadilli məktəb problemi həll edilməsə də, ermənilərə bu imkanlar yaradılmışdır.

İranın Tehran, İsfahan, Təbriz, Urmiya, Xoy və digər şəhərlərində erməni məktəbləri fəaliyyət göstərir.[75] 2000-ci illərin əvvəllərində İrandakı erməni məktəblərinin sayı 30-dan artıq olmuşdur.[76] Təkcə İran paytaxtında təxminən 7000 şagirdi olan 25 erməni məktəbi vardır.[77] Hazırda Tehranda Aharonian Erməni Bağçası və İbtidai Məktəbi (8-ci rayon, Zərrinqabayi küçəsi), Erməni Ararat Məktəbi (İsna-əşəri küçəsi), Şant Erməni Məktəbi (8-ci rayon, Rəhməti küçəsi), Məryəmiyan Məktəbi (8-ci rayon, Rəhməti küçəsi), Araks Erməni Qız Məktəbi (Abdeh), Gohar Erməni Məktəbi (4-cü küçə); Təbrizdə Əsədi Erməni Məktəbi (Kilsə xiyabanı, Baron Avak küçəsi); İsfahanın Şahinşəhr bölgəsində İsfahan Erməni Məktəbi, Müqəddəs Vartan İbtidai Məktəbi fəaliyyət göstərir.

İran vətəndaşları Ermənistanda tibb, musiqi və incəsənət ixtisasları üzrə təhsil almağa üstünlük verirlər. Ölkələr arasında elm və təhsil diplomatiyasının hüquqi bazasını təşkil edən sənədlər imzalanıb. Ermənilər saxta "erməni soyqırımı" ilə bağlı təbliğatın İran cəmiyyətində ədəbi əsərlər vasitəsi ilə təbliğinə xüsusi diqqət yetirirlər və bu işdə bir sıra İranlı tərcüməçilər də onlara kömək göstərirlər.

Ermənistanda İranşünaslıq tədqiqatları aparan mərkəzlər fəaliyyət göstərir. Ermənistan universitetlərində İranşünaslıq tədqiqat mərkəzləri yaradılmışdır.[78] Ölkələr arasında mədəni və elmi əlaqələrin inkişafında xüsusi rol oynayan təşkilatlardan biri Ermənistan-İran Mədəniyyət mərkəzi – "Mihr" olmuşdur. Qeyd etmək lazımdır ki, Ermənistan SSR-in qurulmasından sonrakı ilk illərdə bu ölkədəki bir sıra ali təhsil müəssisələrində Şərqşünaslıq və

---

[75] Onullahi, S.M. Erməni millətçiləri və İran / S.Onullahi. –Bakı: Maarif, –2002. –s. 29.

[76] İftixari, A.H. İran İslam Respublikasının Qafqaz siyasəti (1991-2005-ci illər): / tarix elmləri namizədi dis./ –Bakı, 2007. –s. 85.

[77] Kelbizadeh, E.H. Armenian community and diaspora factor in Iran-Armenia relations // –Baku: Caucasus studies, –2020, № 1, –p. 20.

[78] دفتر مطالعات سیاسی و بین المللی. کتاب سبز ارمنستان / -تهران: موسسه چاپ و انتشارات وزرات امور خارجی، ۱۳۸۸- ، -171 ص.

İran tədqiqat mərkəzləri yaradılmışdı. Bu mərkəzlərdə fars klassiklərinin, o cümlədən Firdovsi, Hafiz və b. əsərlərinin erməni dilinə, erməni şair və yazıçılarının əsərləri isə fars dilinə tərcümə edilmişdir. Bu prosesə İrandan olan bəzi tədqiqatçılar da cəlb edilmişdir. Ermənistan saxta "erməni soyqırımı", Azərbaycan Respublikasına qarşı ərazi iddiaları ilə bağlı təbliğatın İran cəmiyyətində ədəbi əsərlər vasitəsi ilə təbliğinə çalışır. Qeyd etmək lazımdır ki, hələ 1979-cu il inqilabına qədər İrandan olan müəllif - İsmayıl Raen (1920-1979) uydurma hadisələrlə bağlı "elmi tədqiqatlar" aparmış və beş fəsildən ibarət olan "Ermənilərin qətliamı" adlı kitab çap etdirmişdir.[79] Uydurma soyqırıma əsər həsr etmiş digər bir müəllif isə siyasi elmlər və diplomatiya sahəsində tədqiqatçı olan Məhəmməd Rza Dəbiridir. Onun "Ermənilərin qətli və məcburi köçürülməsi. Sui-qəsd, yoxsa müharibə məcburiyyəti" əsəri qeyd olunan mövzuya həsr olunmuşdur. [80]

Hazırda Ermənistanda İranla bağlı tədqiqatların aparıldığı iki mərkəz mövcuddur. Bunlardan biri İrəvan Dövlət Universitetinin Şərqşünaslıq Fakültəsinin İranşünaslıq kafedrası, digəri isə Ermənistan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutudur.

1968-ci ildə İrəvan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi yaradılana qədər İranla bağlı məsələlər əsasən Filologiya fakültəsində öyrənilmişdir. Müstəqil İranşünaslıq kafedrasının ilk rəhbəri professor Gevorq Nalbandyan olmuşdur. 2014-cü ildən bugünə qədər İranşünaslıq kafedrasının rəhbəri Vardan Voskanyandır. İranşünaslıq kafedrasının tədqiqat istiqamətləri əsasən aşağıdakılardır: canlı və ölü İran dilləri və dialektləri (fars, əfqan, kürd, talış, tat, parfiya, orta fars, qədim fars); İran, irandilli xalq və etnik qrupların yaşadıqları ərazilərin tarixi və coğrafiyası; bu qrupa daxil olan xalqların və etnik qrupların ədəbiyyatı, mədəniyyəti, sivilizasiyası tarixi, İran və Yaxın Şərq regionunun aktual siyasi problemləri və s.

Beynəlxalq bazalarda indeksləşən "İran and Caucasus", "İranian

---

[79] اسماعیل ر.، قتل عام ارمنیان / ر. اسماعیل. - تحران: امیر کابیر، -۱۳۵۷، ۲۸۴ ص

[80] دبیری،م. کشتار و کوچ اجباری ارامنه: نسل‌کشی یا ضرورت جنگی؟ : [منبع الکترونیکی] \\- تهران: موسسه ترجمه و تحقیق «هور»، - بهمن ۰۸ ۱۳۹۷.
URL: https://hoosk.ir/نسل%E2%80%8Cکشی-یا-ضرورت-جنگی-کشتار-و-کوچ-اجباری-ارامنه/

linguistics” adlı jurnallar məhz bu kafedranın nəzarətindədir. Ermənistan dövləti bu cür jurnalları nəzarət altında saxlamaqla saxta tezislərin elmi dövriyyəyə fakt kimi təqdim olunmasına çalışırlar. Bundan əlavə qeyri-farsdillilər üçün beynəlxalq farsdilli kurslarının təşkilində kafedra aktiv rol oynayır.

Kafedra əməkdaşları həm Ermənistanda, həm də xaricdə mütəmadi olaraq peşəkar təlimlər keçirlər. Onların bir çoxu beynəlxalq və yerli qrant proqramlarına cəlb olunmuşdur. İranşünaslıq kafedrasının Tehran, İsfahan, Yəzd, “Cundişapur”, Nişapur və Təbriz universitetləri ilə əməkdaşlıq əlaqələri qurulub. 2023-cü ilin iyununda İrəvan Dövlət Universiteti və Tehran Dövlət Universiteti arasında imzalanmış memoranduma əsasən Tehran Universitetinin Qafqaz Araşdırmaları Mərkəzinin tədqiqatçılarının İrəvanda İranşünaslıq kafedrasının fəaliyyətində iştirak etməsi, birgə bakalavr və magistr proqramlarının hazırlanması barədə razılıq əldə olunmuşdur.

Ermənistan Milli Elmlər Akademiyasının İranşünaslıq şöbəsi isə İranşünaslıq şöbəsi tarix, daxili siyasət, aqrar əlaqələr və İslam inqilabının aktual məsələləri ilə yanaşı, İran xalqlarının etnik-mədəni və dil xüsusiyyətlərinin, klassik və müasir fars ədəbiyyatının müxtəlif problemlərini araşdırır.

İranda Qafqazı, Ermənistanı və erməniləri öyrənən xeyli sayda tədqiqat mərkəzləri fəaliyyət göstərir. Bu tədqiqat mərkəzlərini birləşdirən əsas xüsusiyyət onların Qafqazdakı prosesləri daha çox İran dövlətinin ideoloji mövqeyindən qiymətləndirmələridir. Tədqiqat mərkəzləri bu baxımdan iki funksiyanı yerinə yetirirlər. İlk növbədə İran dövlətinin Qafqazla bağlı, o cümlədən Ermənistana münasibətdə yürütdüyü siyasətin formalaşması üçün tədqiqatlar aparırlar və bu tədqiqatlardan rəsmi dövlət qurumları istifadə edir. Digər tərəfdən Ermənistanda və ümumilikdə Qafqaz bölgəsində İranın təsirini gücləndirmək üçün təbliğat məqsədi daşıyan materiallar hazırlanır.

Səhiyyə sahəsində hər iki tərəf qarşılıqlı olaraq əməkdaşlıq edir. Səfil və yoxsul erməni əhalisi İranın ucuz səhiyyə xidmətlərindən yararlanmağa çalışır. Eyni zamanda İran tərəfi də tibbin müəyyən sahələri üzrə Ermənistanda mövcud olmuş təcrübəni öyrənməyə çalışmışdır. COVİD-19 pandemiyası dövründə hər iki ölkənin səhiyyəsi

ciddi sınaqlara və böhranlara məruz qalmışdır. Bu sahədə də Ermənistan İrandan müəyyən yardımlar almağa çalışmışdır.[81]

**IV fəslin** “**Mədəni sahədə əməkdaşlıq**” adlanan **ikinci paraqrafında** qeyd olunur ki, iki ölkə arasında mədəniyyətin ən müxtəlif sahələrində - abidələrin “bərpası”, musiqi, ədəbiyyat, kino, kitab nəşri istiqamətlərində əməkdaşlıq mövcuddur. İran ərazisindəki xristian abidələrinin erməniləşdirilməsi, Ermənistan ərazisindəki müsəlman dini abidələrinin isə fars maddi mədəni irsinin nümunələri kimi təqdim edilmə cəhdləri olmuşdur və hazırda da vardır. Musiqi sahəsində Qafqaz xalqlarına məxsus musiqilərin ermənilər tərəfindən İranda erməni musiqisi kimi təqdim etmək cəhdləri də xüsusi vurğulanmalıdır. Ermənistan uydurduğu yalanları İran cəmiyyətində keçirdiyi film həftələrində nümayiş etdirdiyi filmlərlə ictimai fikirdə möhkəmləndirməyə çalışır. Habelə müxətlif İran ziyalılarını cəlb etməklə təbliğat vasitəsi olaraq erməni müəlliflərinin əsərlərinin fars dilinə tərcüməsinə və nəşrinə çalışır.

**IV fəslin “Dini sahədə əməkdaşlıq və əlaqələr”** adlanan **üçüncü paraqrafında** qeyd olunur ki, iki ölkənin fərqli dinlərə mənsub olmalarına baxmayaraq din təşkilatları arasında əlaqələr mövcuddur. 1991-ci ildən sonra fərqli dinlərə mənsub olmalarına baxmayaraq İrandakı dini təşkilatlarla Ermənistandakı dini strukturlar arasında əlaqələr mövcud olmuşdur. Məsələn, 1994-cü ilin avqustunda erməni katolikosu I Vazgenin ölümü ilə əlaqədar İrandan yüksək rütbəli, tanınmış din xadimlərindən ibarət olan bir heyət Ermənistana səfər etmişdi. 1995-ci ilin aprel ayında yeni katolikos I Qaragenin (Nşan Akopi Sarkisyan) məsh mərasimində də İrandan belə bir heyət iştirak etmişdi.

Ermənistanla İran arasında çox yüksək səviyyəli hesab edilə biləcək səfərlərdən biri 2015-ci ilin iyununda, digəri isə noyabrda gerçəkləşmişdi. İyunda İranın ali dini liderinin Həcc məsələləri üzrə nümayəndəsi Seyid Əli Qazi Əskər II Qareginlə (Ktirc Grigori Nersesyan) görüşmüş, birgə mədəni və dini maarifləndirmə proqramlarının həyata keçirilməsi məsələlərini müzakirə etmişdilər.

[81] در تماس تلفنی دکتر روحانی با نخست وزیر ارمنستان مطرح شد؛ [منبع الکترونیکی] \ –تهران: سایت رسمی رئیس جمهور جمهوری اسلامی ایران،ئ -9 اردیبهشت 1399،.
URL: www.president.ir/fa/115001/printable

Həmin ilin noyabrında İranın Beynəlxalq Əhli-beyt Assambleyasının baş katibi Ayətullah Həsən Əxtəri ermənilərin ali patriarxı və katolikosu II Karekinin dəvəti ilə İrəvana səfər etmiş, Göy məscid və Üçkilsəni ziyarət etmişdi.[82]

İran erməni kilsəsinin gücündən istifadə edərək xristian dünyasında özünün təbliğat imkanlarını artırmağa, Ermənistan isə azərbaycanlılara və türklərə qarşı münasibətdə bir çox hallarda dini şüarlar altında apardığı müharibənin və ölkədəki islamafobiyanın heç də bütün müsəlmanlara qarşı yönəlmədiyini göstərməyə çalışır.

**IV fəslin dördüncü paraqrafı "Əlaqələrin inkişafında KİV-in rolu və əsas fəaliyyət istiqamətləri"** adlanır. Burada qeyd olunur ki, İranda islam inqilabından sonra ən çox imtiyaza sahib qeyri-müsəlman icması kimi ermənilər fəal şəkildə anti-türk təbliğatı aparmış və müasir dövrdə də bu fəaliyyəti məkrli şəkildə həyata keçirirlər. Bu cür təbliğat İran İslam Respublikasının İslam dünyasında mövcud olan nüfuzuna ciddi zərbə vurmaqla yanaşı, onun dini baxımdan daha yaxın, iqtisadi baxımdan daha güclü qonşuları olan Azərbaycan və Türkiyə ilə münasibətlərinə də ciddi xələl gətirir. İranda anti-türk təbliğatının aparılmasında ermənidilli mətbuat orqanlar ("Alik", "Araks" qəzetləri, ermənilərə məxsus internet saytları, Erməni radiosu və s.) mühüm rol oynayırlar.

Həm tarixinə, həm də tirajına görə İranın ən böyük ermənidilli qəzeti "Alik"dir. "Alik" ermənicədən tərcümədə "Dalğa" deməkdir. Bu qəzet İranda fars dilində 1926-cı ildən etibarən nəşr edilən "Ettalat"dan sonra, nəşrini bu günə qədər davam etdirən ikinci ən qədim qəzet kimi təqdim edilir.[83]

"Alik"in səhifələrində aparılan anti-türk təbliğatı İranın həssas olduğu məqamlar nəzərə alınmaqla aparılır. Məsələn, 2018-ci il mayın 27-də nəşr olunmuş "Türkiyə: İsrail erməni qırğınını "soyqırım" kimi müzakirə edir" başlıqlı xəbərdə Türkiyənin İsraillə olan münasibətlərinə toxunulur, Türkiyənin səlahiyyətli şəxslərinin açıqlamalarına yer verilirdi.

---

[82]Симонян А. «Иран и Армения – один народ, но два государства»: [Электронный ресурс] / –Баку: Haqqın.az, 07 декабря, 2015. https://haqqin.az/news/58627.

[83] Estukyan, V. İran'daki Ermeni toplumunun sesi: [Dijital kaynak] / –Tahran: Alik gazetesi, –08 Aralık, 2017. URL:www.agos.com.tr/tr/yazi/19845/irandaki-ermeni-toplumunun-sesi-alik.

Burada yeridilən incə siyasət İsrail-Türkiyə münasibətlərinin mümkün qədər daha çox pisləşdirilməsinə xidmət etmək, məsələni qabartmaqdan ibarət idi. Bu amil həm İranın, həm də Ermənistanın maraqları ilə üst-üstə düşürdü. Bu tipli məqalələrə demək olar ki, qəzetin əksər nömrələrində rast gəlmək mümkündür[84].

Bundan əlavə qəzetin səhifələrində tez-tez erməni iddialarını tarixi baxımdan əsaslandırmağa çalışan tarixi səpkili məqalələrə yer verilir.

İran İslam Respublikasında hal-hazırda nəşr edilən digər ermənidilli qəzet həftəlik “Araks” (Araz) qəzetidir. Azərbaycanlı tədqiqatçı Seyidağa Onullahi bu qəzetin, daşnakların təbliğatçısı olduğunu yazmışdır.[85] Qəzet 1988-ci ildən etibarən Tehranda ayda bir dəfə olmaqla nəşrə başlamışdır. Ölkənin paytaxtı Tehran şəhərində nəşr edilən bu qəzetdə əsasən mədəni və ədəbi məsələlərlə bağlı məqalələr dərc edilir. Lakin mədəni və ədəbi məsələlərə həsr olunmasına baxmayaraq, bu qəzet də Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinə ərazi iddialarını əks etdirən müxtəlif addımlar atır. Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyan və bunu müxtəlif səviyyələrdə dəstəklədiyini elan edən İran İslam Respublikasının vətəndaşı olan ermənilər tərəfindən nəşr etdirilən bir mətbuat orqanında Azərbaycana qarşı təxribatçı təbliğat yayan məqalələr nəşr olunur.

**IV fəslin beşinci paraqrafı “İranda erməni icması, təşkilatları və onların ikitərəfli münasibətlərə təsirləri”** adlanır. Bu paraqrafda qeyd olunur ki, İran bütün dünyada erməni icmasının ən güclü olduğu ölkələrdən biri hesab edilir. İranın Rusiya Federasiyası, ABŞ və Fransadan sonra erməni icmasının sayına görə dördüncü yerdədir. Bu ölkədə erməni icması hələ Səfəvilər dövründən etibarən casusluq fəaliyyəti ilə məşğul olmuş, xristian Avropasının maraqlarının müdafiəçisi rolunda çıxış etmişdir. Tədqiqatlardan aydın olur ki, bu fəaliyyət sonrakı dövrlərdə də davam etmişdir. İran İslam Respublikasında ermənilər qriqorian

[84] تركيه: اسرائيل با "نسل كشى" خواندن كشتار ارامنه خودش را زير سوال مى‌برد: [منبع الكترونيكى]/ روزنامه آليک، -06 خرداد 1397، URL:http://alikonline.ir/fa/news/political/سياسى/item/6018--تركيه-اسرائيل-با-نسل-كشى-خواندن-كشتار-ارامنه-خودش-را-زير-سوال-مى‌برد

[85] Onullahi, S.M. Erməni millətçiləri və İran / S.Onullahi. –Bakı: Maarif, –2002. –s. 12.

məzhəbli xristianlar olaraq dini azlıq kimi tanınırlar. İran konstitusiyası onlara daxili, mədəni və dini sahədə demək olar ki, muxtariyyət hüququna bərabər olan xeyli hüquqlar vermişdir.[86] İran İslam Respublikasının konstitusiyasına görə xristian ermənilər də dini mərasimlərini qanun çərçivəsində həyata keçirə bilərlər. Şəxsi status və dini təhsil məsələlərində sərbəstdirlər və öz ayinlərinə əməl edirlər.

Müasir mərhələdə İranda yaşayan ermənilərin sayı ilə bağlı məlumatlar mübahisəlidir. Ən son hesablamalar deməyə əsas verir ki, əslində erməni icmasının sayı 100 min nəfərdən artıq deyildir. Hazırda erməni icması İranın üç böyük şəhərində - paytaxt Tehranda, İsfahanda və Təbrizdə məskunlaşmışdır. Bundan əlavə Urmiya və Ərak da ermənilərin sayının çox olduğu şəhərlər sırasındadırlar. Dini yeparxiyalara uyğun olaraq İrandakı erməni icması üç yerə bölünür:

1. Mərkəz-Tehran yeparxiyası;
2. Cənubi İran-Hindistan (İsfahan) yeparxiyası;
3. Azərbaycan (Təbriz) yeparxiyası.

Beynəlxalq aləmin digər dini azlıqlara qarşı yarana biləcək təzyiqlərə qarşı həssasiyyətini yaxşı bilən ermənilər bundan istifadə edirlər. İranın bu zəif nöqtəsindən istifadə etməklə məqsədlərini reallaşdırmağa çalışırlar. Onlar çoxlu ictimai və iqtisadi təşkilatlar yaradır, əslində gizli təbliğat mərkəzləri funksiyasını həyata keçirən məktəblər və teatrlar açır, qəzetlərini nəşr etdirirlər.

Dissertasiyanın **V fəsli "Ermənistanın işğal, ermənilərin terror fəaliyyətlərinə İranın münasibəti"** adlanır. Fəslin **"İran İslam Respublikasında erməni terror təşkilatlarının fəaliyyəti"** adlanan **birinci paraqrafında** qeyd olunur ki, tarixən yaşadıqları ölkələrin dövlət idarəçilərinə saxta sədaqət nümayiş etdirərək öz mövqelərini gücləndirən, təşkilatlanan ermənilər həlledici məqamlarda həmin dövlətlərə öz məqsədləri naminə zərbə vurmuşlar.

İslam inqilabı dövründə müxtəlif xarici dövlətlər yeni qurulan İran hökumətinə qarşı casusluq fəaliyyətində ermənilərdən fəal şəkildə istifadə edirdilər. İrandakı erməni yeparxiyalarının tabe olduqları Livandakı Müqəddəs Kilikiya Katolikosluğunun (Antilyas kilsəsi) ABŞ-ın MKİ-nin nəzarətində olması bu məsələdə önəmli

[86] İran İslam Cümhuriyyətinin Əsas Qanunu / –Bakı: Qızıl Şərq, –1993. –s. 29.

rol oynayırdı. ABŞ və bəzi digər Qərb ölkələrinin kəşfiyyat orqanları ilə ermənilərin əsas qatı millətçi siyasi təşkilatı olan Daşnaksütyun arasında sıx əlaqələr var idi.

Müasir mərhələdə İranda erməni siyasi-terror təşkilatlarının fəaliyyətinin təhlili göstərir ki, bu təşkilatların fəaliyyəti təkcə Türkiyəyə və Azərbaycana qarşı yönəlməmişdir. Ümumerməni işinin həyata keçirilməsi naminə erməni terror-siyasi təşkilatları İran İslam Respublikasına, Fransa və İsveçrə kimi dövlətlərin şirkət və nümayəndəliklərinə qarşı da terror aktları törətməkdən çəkinmirlər.

İranın erməni terror siyasi təşkilatlarına yanaşmasına gəlincə, bu münasibət xaraktercə qarışıqdır və müxtəlif dövrlərdə müxtəlif şəkildə təzahür etmişdir. XX əsrin 80-ci illərində İranda terror hücumları təşkil edən erməni terror təşkilatlarına qarşı İran daxili təhlükəsizlik qüvvələri sərt münasibət göstərmiş, Erməni İnqilabi Federasiyası – Daşnaksütyunun İran qolunun fəaliyyətini xeyli məhdudlaşdırmışdılar. Lakin XX əsrin 90-cı illərindən etibarən bu münasibət dəyişmiş və müxtəlif zamanlarda İranın bu terror-siyasi təşkilatlardan bəzilərinə dəstək verməsi ilə bağlı iddialar ortaya çıxmışdır.

**V fəslin "Uydurma "erməni soyqırımı" iddialarına İranın münasibəti"** adlanan **ikinci paraqrafında** qeyd olunur ki, XX əsrin 60-cı illərindən sonrakı dövrdə süni şəkildə ortaya atılmış 1915-ci il qondarma "erməni soyqırımı" məsələsi bütün dünyada olduğu kimi, İrandakı erməni icmasını da birləşdirən əsas ideoloji uydurmalardan biridir. Dünyanın müxtəlif ölkələrindəki erməni diasporunun və icmalarının təşkilatlanmasında əsas amillərdən biri türkə nifrət psixologiyası, Türkiyə ilə bağlı baxışlarıdır. Bu cür yanaşma isə erməniləri təşkilatlandıran, onların diaspora kimi birləşməsini təmin edən ideologiyanın əsasını təşkil edir.

İranda fəaliyyət göstərən erməni kilsələrinin əksəriyyəti uydurma 1915-ci il hadisələrini xatırladan simvollarla zəngindir. [87] İran qondarma "soyqırımı"na ən çox abidənin qoyulduğu müsəlman ölkəsidir. Ölkədə yeddi saxta "soyqırımı" memorialı vardır.

Ermənistanın dövlət müstəqilliyini elan etməsindən sonrakı

---

[87] رسولی، م. نگاهی به روابط برون گروهی دیاسپورای ارمنی با تکیه‌بر مفهوم «حافظه جمعی» (مطالعه ای انسان‌شناختی در ارامنه ایران) \\- تهران: فصلنامه علوم اجتماعی. - پاییز ۱۳۹۴. سال ۰۲۵، شماره ۷۰، ص. 341.

dövrdə də bu məsələ daim gündəmdə saxlanılmışdır. İran parlamentində bununla bağlı bəzi hallarda müzakirələr keçirilmiş, Ermənistana səfər edən bəzi İran prezidentləri Çiçernakaberddəki saxta “soyqırımı” abidəsini ziyarət etmişlər.

44 günlük müharibədən və Ermənistanın ağır məğlubiyyətindən sonra İranda yaşayan ermənilər “məzlum xalq” təbliğatlarını daha da gücləndirmiş, saxta “soyqırımı” hadisələrinin ildönümünün qeyd olunduğu aprel ayında İranda da müxtəlif aksiyalar keçirmişdilər. İranda təşkil olunan aksiyalarda nəinki saxta “soyqırımı” anılmış, hətta vaxtilə Azərbaycanın işğal edilmiş ərazilərində qurulmuş oyuncaq hərbi xunta rejiminin “bayrağı”nı əks etdirən maskalar taxılmışdı.[88] Halbuki 2020-ci ilin sentyabr-noyabr aylarında Azərbaycanın ərazilərini işğaldan azad etmək üçün apardığı müharibə zamanı İranın müxtəlif şəhərlərində azərbaycanlılar tərəfindən keçirilən “Qarabağa dəstək” aksiyalarının qarşısı alınmışdı. Lakin ermənilərin bu cür təxribatçı təbliğatının qarşısının alınması üçün İran dövləti faktiki olaraq əməli addımlar atmamışdı. Rəsmi hakimiyyət orqanları bu tədbirləri daha çox erməni camaatının daxili özünüidarəçilik hüququ çərçivəsində reallaşdırdığı hadisələr kimi qələmə vermişdir və verməkdədir. İran parlamentinin erməni deputatlarının 1979-cu il inqilabından sonrakı dövrdə apardıqları bütün işə, göstərilən bütün cəhdlərə baxmayaraq İran rəsmi olaraq erməni “soyqırımı”nı tanımır.

**V fəslin üçüncü paraqrafı “Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsi və İran İslam Respublikası”** adlanır. Bu paraqrafda qeyd olunur ki, Qarabağ münaqişəsinin başlamasından sonra İran İslam Respublikasının narahatlığı əsasən aşağıdakı məsələlərlə bağlı olmuşdur:

-SSRİ-nin dağıldığı şəraitdə İranın şimal sərhədlərində yaranmış hər hansı siyasi sabitsizliyin bu ölkə üçün də təhlükələr yaratması;

-İİR-in Azərbaycan ostanlarının (Ərdəbil, Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Zəncan və s.) azərbaycanlı – türk əhalisinin münaqişədə soydaşları ilə eyni mövqedən çıxış etməsi və

[88] Հայոց Ցեղասպանութեան 106-րդ տարելիցը` Թեհրանում: [Elektron resurs] / «Ալիք» թերթը` առցանց, -25 ապրիլի, 2021 թ. URL: https://alikonline.ir/news/ community /tehran/item/68038-հայոց-ցեղասպանութեան-106-րդ-տարելիցը`-թեհրանում/

münaqişəyə qoşulma ehtimalı;

-Müharibə bölgələrindən qaçqınların və məcburi köçkünlərin İrana mümkün axını və bunun doğura biləcəyi sosial-iqtisadi fəsadlar;

-Münaqişənin qızışacağı təqdirdə regiondankənar dövlətlərin, xüsusən ABŞ-ın Cənubi Qafqazdakı proseslərə müdaxilə ehtimalı və s.

Bu baxımdan münaqişənin başladığı ilk dövrlərdən etibarən İran onun tənzimlənməsi üçün vasitəçilik missiyasını öz üzərinə götürməyə cəhdlər göstərmişdi. Lakin bir sıra səbəblərdən İİR-in bu vasitəçilik missiyası uğursuzluqla nəticələnmişdir. Sonrakı dövrdə Azərbaycan Respublikasının İİR-in regional rəqabətdə olduğu dövlətlərlə (ABŞ, İsrail və s.) əlaqələrini inkişaf etdirməsi İranın əsassız narahatlıqlarını və haqsız etirazlarına səbəb olmuşdur. Belə olan halda Azərbaycan Respublikasına təsir göstərmək məqsədi ilə İİR Ermənistanla əlaqələrinin gücləndirilməsi istiqamətində bir sıra addımlar atmışdır. Təbii ki, bu cür addımlar Ermənistanın iqtisadi baxımdan daha uzun müddət davam gətirməsini təmin etmişdir.

Münaqişənin davam etdiyi dövrdə İİR rəsmi səviyyədə Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıdığını və Qarabağın dağlıq hissəsini Azərbaycanın tərkib hissəsi hesab etdiyini bəyan etmişdir. Praktik səviyyələrdə isə bəzən rəsmi bəyan olunan mövqe ilə uyğun gəlməyən məqamlar müşahidə edilmişdir.

2020-ci ildə baş verən 44 günlük müharibə dövründə geosiyasi proseslər İİR-in müharibənin ilk günlərində prosesə xeyli dərəcədə neytral şəkildə yanaşmasını təmin etmişdir. Əslində neytral mövqeyi ədalətli hesab etmək olmazdı. Çünki bu İran İslam Respublikasının təcavüzkarla təcavüzə uğrayana eyni yanaşma nümayiş etdirməsi demək idi. Sentyabrın 27-də baş verənlərlə əlaqədar Azərbaycan və Ermənistanın xarici işlər nazirləri ilə əlaqə saxlayan İranın xarici işlər naziri yalnız *"vəziyyətdən narahatlığını ifadə edərək, tərəfləri təmkinli olmağa, atəşkəsə və hərbi əməliyyatların dərhal dayandırılmasına, habelə beynəlxalq hüquq çərçivəsində danışıqlara başlamağa"* çağırmışdı.[89]

Lakin rəsmi Tehranın neytral mövqeyi belə yenə də özünün

---

[89] گفتگوی تلفنی جداگانه دکتر ظریف با وزرای امور خارجه آذربایجان و ارمنستان: [منبع الکترونیکی] \ - تهران: سایت وزارت امور خارجه جمهوری اسلامی ایران، ۰۶/۰۷/۱۳۹۹- URL: https://mfa.gov.ir/portal/newsview/611897

siyasi maraqları ilə bağlı idi. İranın mövqeyinə Ermənistanda hakimiyyətdə Nikol Paşinyan hökumətinin olması əhəmiyyətli təsir göstərmişdi. Başqa sözlə desək Paşinyan rejiminin cəzalandırılması Rusiya kimi, İranın da maraqlarına cavab verirdi. Çünki N.Paşinyan Avropa inteqrasiya, ABŞ-la fəal əməkdaşlıq şüarları ilə hakimiyyətə gəlmişdi. Bu isə İranı da kifayət qədər narahat edirdi.

Yalnız bu ölkənin azərbaycanlı əhalisinin güclənən tələbləri, habelə Azərbaycan Respublikasının cəbhədə qazandığı qələbələr İran tərəfinin müəyyən bəyanatlarla çıxış etməsinə səbəb olmuşdu. Digər tərəfdən müharibənin başlamasından sonra İran ərazisi vasitəsi ilə Ermənistana silahların göndərilməsi ilə bağlı kütləvi informasiya vasitələrində yayılan bir sıra iddialar, İran azərbaycanlılarının etiraz aksiyaları İranın prosesdən tam kənarda qala bilməyəcəyini göstərirdi. Sentyabrın sonunda İran İslam Respublikası Xarici İşlər Nazirliyinin məsələ ilə əlaqədar açıqlamasında deyilirdi ki, İran İslam Respublikası malların ölkələrə köçürülməsi və tranziti prosesini yaxından izləmək və nəzarət etməklə yanaşı, silah və sursatların köçürülməsi üçün ölkənin ərazilərindən istifadə edilməsinə icazə vermir. İran Xarici İşlər Nazirliyinin sözçüsü Səid Xətibzadə, İran İslam Respublikası ərazisindən Ermənistana silah və hərbi texnikanın tranzitinin yalan olduğunu demiş, daşınan malların yalnız mülki mallar olduğunu bəyan etmişdi.[90]

Müharibə nəticəsində Azərbaycan Respublikasının İİR-lə sərhəd zolağının uzun illər ərzində işğal altında qalmış hissəsi də azad edilmişdi. Azərbaycanın ərazilərini işğaldan azad etməsi uğrunda apardığı müharibə ilə əlaqədar İran İslam Respublikasının Prezidenti Həsən Ruhani oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmiş, Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın davam etməsindən ölkəsinin narahatlığını ifadə etmiş və münaqişənin tez bir zamanda sülh yolu ilə həll olunacağına ümidvar olduğunu bildirmişdi.

Aparılan döyüş əməliyyatları haqqında məlumat verən

---

90 نگوی وزارت امور خارجه ادعاهای مطرح شده در انتساب دروغ ترانزیت ادوات نظامی از مسیر خاک ایران به ارمنستان را رد کرد: [منبع الکترونیکی] \ - تهران: سایت وزارت امور خارجه جمهوری اسلامی ایران، - ۱۳۹۹، مهر ۸
URL: https://mfa.gov.ir/portal/newsview/612084

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran dövlət başçısının diqqətinə çatdırmışdı ki, İran-Azərbaycan dövlət sərhədinin işğal olunmuş ərazisinin bir hissəsi Azərbaycanın nəzarətinə keçib və sərhəd boyu işğaldan azad olunmuş ərazilərdə tezliklə Azərbaycan sərhəd qoşunlarının və sərhəd infrastrukturunun yerləşdirilməsi nəzərdə tutulur.[91]

İran müharibədən sonrakı dövrüdə regionda formalaşmış yeni geosiyasi konfiqurasiyaya uyğunlaşmaqda xeyli dərəcədə çətinlik çəkməkdədir. Bir tərəfdən Azərbaycan və Türkiyə tərəfindən irəli sürülmüş "3+3" formatında regional əməkdaşlığı dəstəklədiyini bəyan edən, xarici işlər naziri səviyyəsində bununla əlaqədar regional turne həyata keçirən İran, digər tərəfdən Türkiyənin regionda artan nüfuzunun qarşısını almağa çalışmış, regional əməkdaşlığın mühüm elementlərindən olan Zəngəzur dəhlizi məsələsində qeyri-konstruktiv mövqe tutmuşdur. Belə bir mövqeyə bir neçə amil təsir göstərir. İlk növbədə İran başa düşür ki, Zəngəzur dəhlizinin açılması Çindən Avropaya yüklərin daşınması üçün mühüm xətt hesab edilən Orta Dəhliz layihəsinin İranın iştirakı olmadan reallaşması deməkdir. Buna görə də Zəngəzur dəhlizinə qarşı çıxan İran Ağbənd – İran Culfası – Naxçıvan istiqamətində alternativ yolun yaradılmasına məmnuniyyətlə razılaşır. Digər tərəfdən İran hesab edir ki, Zəngəzur dəhlizinin reallaşması İran-Ermənistan sərhədinin kənar qüvvələrin nəzarəti altına keçməsi deməkdir.

Dissertasiya işinin **Nəticə** hissəsində tədqiqata dair elmi-nəzəri ümumiləşdirmələr aparılmışdır. Qeyd edilmişdir ki, Ermənistan-İran İslam Respublikası arasında münasibətlər hər nə qədər sıx və güclü görünsə də əslində bu münasibətlərin altında yatan bir sıra problemlər müsbət perspektivlər vəd etmir.

Bunlardan birincisi "Böyük Ermənistan" xülyasıdır. Məlumdur ki, bir sıra erməni təşkilatları və Ermənistandakı rəsmi tarixşünaslıq absurd "Böyük Ermənistan" uydurmasına Azərbaycan, Şərqi Anadolu, Cənubi Gürcüstan əraziləri ilə yanaşı indiki İran İslam Respublikasının şimal-qərb vilayətlərini və rayonlarını da aid edir.

---

[91] İran İslam Respublikasının Prezidenti Həsən Ruhani İlham Əliyevə telefonla zəng edib: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin internet saytı, –06 oktyabr, 2020. URL: https://president.az/articles/41980.

Saxtakarlıqla hazırlanmış bir çox xəritələrdə bunu açıq aşkar müşahidə etmək mümkündür.

Digər bir ideoloji problem doğuracaq məsələ İran dövlətinin Qafqazın 17 şəhərinə olan iddialarıdır. Əslində zaman-zaman müxtəlif səviyyələrdə Azərbaycana qarşı səsləndirilən bu iddia, həm də Ermənistanın özünü hədəfə alır. Belə ki, bəzi İranlı müəlliflərin və siyasi dairələrin "Qafqazın 17 şəhəri İranındır" iddiası tarixən Azərbaycana aid olmuş, hazırda isə Ermənistanın paytaxtı olan İrəvan şəhərinə də aid edilir. Ümumiyyətlə, mühafizəkar dairələr tərəfindən tez-tez ortaya atılan Qafqazın İrana qaytarılması fikri Ermənistanın da dövlət müstəqilliyini sual altıda qoyur.

Üçüncüsü, Ermənistanın hazırkı rejiminin Qərbə inteqrasiya və ABŞ-la əməkdaşlıq meyilləri İranla münasibətlər üçün yaxşı perspektiv vəd etmir. İranla hazırki şəraitdə sıxlaşdırılan münasibətlərin Ermənistanın çarəsizliyindən qaynaqlandığını göstərir. Unutmamaq lazımdır ki, Ermənistanda bir sıra strateji təyinatlı obyektlərin ABŞ-ın nəzarətinə verilməsi cəhdləri mövcud olmuşdur.

Münasibətlərin gələcəyi bir neçə ssenari üzrə inkişaf edə bilər.

1) İrandakı mövcud dini-mühafizəkar rejimin mövcudluğunu davam etdirməsi, Ermənistanın isə düşdüyü böhranlı vəziyyətdən qurtulmaq üçün ABŞ və Avropa ölkələri ilə əlaqələrini inkişaf etdirməsi münasibətlərin zəifləməsinə gətirib çıxara bilər.

2) İranda rejim dəyişikliyi baş verərsə və ya hər hansı formada İranla Qərb arasında əlaqələr inkişaf yoluna qədəm qoyarsa bu ölkənin Ermənistan üzərindəki təsirləri güclənər və Ermənistan İran üçün Avropaya çıxmaqdan ötrü əlverişli marşruta çevrilər.

3) Rusiyanın Ukrayna müharibəsində tamamilə zəifləməsi və daxili problemlərinə yönəlməsi Ermənistandakı boşluğun İran tərəfindən doldurulma cəhdlərini daha gücləndirə bilər.

4) Ermənistanın regiondakı yeni geosiyasi reallıqları qəbul etməsi, Azərbaycan və Türkiyənin təklif etdiyi əməkdaşlığı seçməsi İranı Cənubi Qafqazda yeni reallıqlarla üz-üzə qoyar, regional inteqrasiya meyillərinin güclənməsinə təkan verə bilər.

**Dissertasiya işinin əsas məzmunu və müddəaları aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**


1. Ermənistan İran İslam Respublikasının Qafqaz siyasətində / E.H.Kəlbizadə, Y.Ü.Baxşıyeva, Ə.Ə.Əzimov. –Bakı: MTM İnnovation, –2019. –360 s.
2. Ermənistan: daxili sosial-iqtisadi və siyasi şərait / Q.Ə.Hacıyev, E.H.Kəlbizadə, A.M.Eyvazov [və b.]. –Bakı: MTM Innovation MMC, –2019. – 352 s.
3. The dynamics of the devolopment of Armenian-Iranian relations in the post-soviet period // –Махачкала: Журнал «История, археология и этнография Кавказа», –2019. т. 15, № 4, –с. 639-651. **(Rusiya).**
4. Robert Koçaryan'ın Cumhurbaşkanlığı döneminde Ermenistan-İran ilişkileri // –Ankara: "Ermeni araştırmaları" dergisi, –2019. № 62, –s. 73-94. **(Türkiyə).**
5. 2018 Devrimi Sonrası Ermenistan-İran İlişkilerinin Analizi // –Ankara: "TÜDEV" dergisi, –2019. №7. –s. 171-190. **(Türkiyə).**
6. İran İslam Respublikasının kütləvi informasiya vasitələrində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi // –Bakı: Sosial elmlər, –2019. №2, –s.102-108.
7. İran İslam Respubikası və erməni terror təşkilatları // "Qafqazda terror" respublika elmi konfransı, –Bakı: MTM Innovation, – 28 noyabr, –2019. –s.54-56.
8. İranda ermənidilli kütləvi informasiya vasitələri və onların anti-türk təbliğatı // Gənc tədqiqatçıların II respublika elmi konfransı, –Bakı: Azərbaycan Universiteti, –15 mart, –2019. –s.212-214.
9. Qafqazda geosiyasi təlatümlər dövründə Ermənistan-İran münasibətləri (2008-2018-ci illər) // VI Beynəlxalq Türk dünyası araşdırmaları simpoziumu, –Bakı: Elm və təhsil, –13-15 iyun, –2019, –s. 93-100.
10. Qloballaşma kontekstində Ermənistan-İran münasibətləri (2008-2018-ci illər) // "Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar" mövzusunda respublika elmi konfransı, –Mingəçevir: MİQ Poliqrafiya, –6-7 dekabr, –2019. –s. 155-157.

11. Ermənistan-İran münasibətlərinin ikili təbiəti və proqnozlaşdırılan perspektivləri // "Beynəlxalq münasibətlərin aktual problemləri" mövzusunda respublika elmi konfransı, –Bakı: Azərbaycan Dillər Universiteti, –2019. –s. 125-128.
12. Дипломатические представители Нахчыванской АССР в Иране // "Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində" beynəlxalq elmi-praktik konfransının materialları, –Bakı: Azərbaycan Dillər Universiteti, –2019. –s. 250-251.
13. Geopolitical and regional analysis of the Armenia-Iran relations in 1998-2008 // –Santyago: "Revista İnclusiones", –2020. Vol. 7, Numero especial, –pp. 424-439. **(Çili).**
14. Armenian policy of the Islamic Republic of Iran after 1991: geopolitical conditions and realities // –Vienna: "Austrian Journal of Humanities and Social Sciences", –2020. № 5-6, –p.3-10. **(Avstriya).**
15. Siyasal inkatörlerin Ermenistan-İran ilişkileri örneğinde uygulanması // –İstanbul: "Avrasya incelemeleri" dergisi, –2020. Cilt 9, № 2, –s. 247-257. **(Türkiyə).**
16. Armenian community and diaspora factor in Iran-Armenia relations // –Bakı: "Qafqazşünaslıq" jurnalı, –2020, № 1, –s. 16-26.
17. Serj Sarkisyanın hakimiyyəti illərində Ermənistan-İran münasibətləri // Qafqazşünasların II Beynəlxalq Forumu, –Bakı: RS Poliqraf MMC, –23-24 may 2019. –2020. –s. 75-82.
18. Elmi tədqiqatlarda dövlətlərarası münasibətlərin dinamikasını müəyyənləşdirən indikatorların tətbiqi (Ermənistan Respublikası-İran İslam Respublikası münasibətləri nümunəsində) // Bakı Mühəndislik Universitetində keçirilən Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş gənc tədqiqatçıların IV beynəlxalq elmi konfransının materialları, –Baku: BEU, –29-30 aprel, –2020. –s. 959-964.
19. Siyaset bilimi araştırmalarında devletlerarası ilişkilerin dinamiğini belirleyen indikatörlerin uygulanması (Ermenistan-İran ilişkileri örneğinde) // 6th International Euroasia Congress on Scientific Researches and Recent Trends, –Ankara: Farabi Publishing House, –May 18-20, –2020. –s. 416-421. **(Türkiyə).**

20. New Caucasus policy of the Islamic Republic of Iran after 1991 and Armenia // V Міжнародної конференції «Весняні наукові читання», –Київ: Центр наукових публікацій, –30 квітня, –2020. 2 частина, –с. 39-50. **(Ukrayna).**
21. İrandakı ermənilər: özünüidarəçilik, təşkilatları və başlıca fəaliyyətləri // VIII. Uluslararası Türk Dünyası araştırmaları sempozyumu (TUDAS) Bildirleri, –Niğde: –2020. Cild 2. –s. 177-183. **(Türkiyə).**
22. Qafqaz geosiyasəti: Ermənistan-İran əlaqələri və təhlükəsizlik // “Pontokaspi və Qafqaz bölgəsi: ekosistemlərin birləşməsi və izolyasiyası şəraitində dəyişikliklər, canlıların filogenezi, geologiya, ekologiya və coğrafiyası” mövzusunda beynəlxalq konfrans, –Bakı: Qərbi Kaspi Universiteti, –2020. –s. 388-392.
23. İranda qafqazşünaslıq mərkəzlərinin fəaliyyəti və erməni köçünün tədqiqi məsələləri // “Etnik deportasiyalar: tarixi və müasir dövr” mövzusunda beynəlxalq konfrans, –Sumqayıt: SDU, –2020. –s. 105-109.
24. İrandakı erməni icması və “Böyük Sürgün” (1603): həqiqətlər və miflər // “XII-XV əsrlər Ön Asiya və Qafqazın tarixi-etnoqrafik məsələlərinə baxış” mövzusunda respublika elmi konfransı, –Bakı: Qərbi Kaspi Universiteti, –2020. –s. 35.
25. Tarihten günümüzə Rusya-İran ilişkilerinde Güney Kafkasya // Rus dış politikasında Orta Asya ve Kafkasya / Editör: M.Memmedli. –Ankara: Nobel yayınları, –2021. –s. 197-223. **(Türkiyə).**
26. Iran-Armenia: relations and indicators // –Baku: “Journal of History of Science”, -2021. Cild 2, № 1. –s. 52-61.
27. Iran's role in ensuring Armenia's energy security // –Bakı: “Sivilizasiya” jurnalı, –2021. №3, –s. 16-26.
28. İsrail-Ermənistan münasibətləri: təsir göstərən amillər və mərhələləri // –Bakı: “Sosial elmlər” jurnalı, –2021. №2. –s. 120-131.
29. Ermənistan-İran münasibətlərində ədliyyə, gömrük, hərbi və sərhəd təhlükəsizliyi məsələləri // –Bakı: “Sosilogiya, sosial psixologiya, siyasət” jurnalı, –2021. №1. –s. 31-39.
30. Ermənistan və İran İslam Respublikası arasında hərbi və təhlükəsizlik sahəsində əlaqələr // “Qafqazşünaslığın aktual problemləri” (məqalələr toplusu), –2021. –s. 56-77.

31. İranda erməni icması, “Böyük sürgün”: həqiqətlər və miflər // “Ortaçağ Azərbaycan tarixinin aktual problemləri” mövzusunda respublika konfransı, –Bakı: Qərbi Kaspi Universiteti, –2021. –s. 141-160.
32. Ermənistanın işğal siyasəti və İran // “Dünya azərbaycanlıları: tarix və müasirlik” mövzusunda IV beynəlxalq konfransın tezisləri, –Bakı: BDU, –2021. –s. 183-187.
33. Yeni dövrün və gələcəyin tələbləri və çağırışları kontekstində Ermənistan-İran münasibətlərinə baxış // “Tarixi təcrübə: dövlətçiliyin siyasi, iqtisadi, sosial-mədəni inkişafının əsas meylləri və perspektivləri” mövzusunda respublika elmi konfransının materialları, –Bakı: BAAU, –2021. –s. 13-16.
34. Armenia-Iran inter-parliamentary relations: main directions and problems // The book of IV International conference on globalization & international relations, –Ankara: İKSAD, –2021. –s. 277-288. **(Türkiyə).**
35. Ermənistan və İran: təhlükəsizlik diplomatiyası // VIII Uluslararası Türk Dünyası Araştırmaları Sempozyumu (TUDAS), –Niğde, –2021. –s. 399-416. **(Türkiyə).**
36. İran İslam Cumhuriyeti'nin Kafkasya politikasında Ermenistan'ın yeri ve rolu // საერთაშორისო სამეცნიერო სიმპოზიუმი თემაზე „მშვიდობიანი კავკასია, -2021. –s. 101-113. **(Gürcüstan).**
37. Azerbaycan ve Ermenistan arasında 44 günlük savaş döneminde İran diplomasisi // Karabagh International Congress of Modern Studies in Social and Human Sciences, –2021. –s. 313-314.
38. Azərbaycan-İran sərhədi üzərində tam nəzarətin bərpası və sərhəd təhlükəsizliyi məsələləri // “Cənubi Qafqazda ərazi-sərhəd problemləri: Qars müqaviləsindən Şuşa Bəyannaməsinə” respublika konfransı, –Bakı: Qafqazşünaslıq İnstitutu, –2021. –s. 38-40.
39. 44-günlük Vətən Müharibəsinin Azərbaycan – İran münasibətlərinə təsirləri // “Azərbaycan Respublikası 30 ildə: Cənubi Qafqazın güc mərkəzi” respublika elmi konfransı,–Bakı: Qafqazşünaslıq İnstitutu, –2021. –s.39-41.
40. Karabağ Savaşı Döneminde İran’ın Kafkasya Politikası // “Sosyo-Politik Yönleriyle Orta Doğu’da Değişim” VI Uluslararası Orta Doğu Sempozyumu,–İstanbul: İstanbul Gelişim

Universitesi, –2021. –s. 58-60. **(Türkiyə).**
41. Historical Christian architecture and Armenian claims in the East and West Azerbaijani provinces of Iran // VIII Uluslararası Van gölü havzası Sempozyumu, –Bitlis: Bitlis Eren Üniversitesi, –2021. –s. 93-40.
42. Qacarlar İranı-Ermənistan münasibətləri və Azərbaycan Xalq Cümhuriyyəti // "Azərbaycan Xalq Cümhuriyyəti tarixi tədqiqatlarda" mövzusunda respublika elmi konfransı, –Bakı: BDU, –2021. –s. 34-36.
43. Ermənistan İsrail Dövlətinin Cənubi Qafqaz siyasətində / M.C.Qasımlı, E.H.Kəlbizadə, Y.Ü.Baxşıyeva. –Bakı: Mütərcim, –2022. –200 s.
44. Прагматизм во внешней политике Ирана и отношениях с Арменией // Махачкала: Журнал «История, археология и этнография Кавказа», –2022. т. 18, № 3, –с. 679-693. **(Rusiya).**
45. The main aspects and problems of Armenia-Iran energy diplomacy // –Çankırı: Çankırı Karatekin Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, –2022. Cilt 12, № 2, –ss. 37-51. **(Türkiyə).**
46. Pragmatism of the Ideological State: Main Aspects of Armenian Policy of Iran // –Ankara: "Kafkasya Çalışmaları" sosyal bilimler dergisi, -2022. Yıl 7, № 13. –s. 45-64. **(Türkiyə).**
47. Антисемитизм в Армении: до и после «бархатной революции» // -Москва: Журнал «Наследие», –2022. № 116. –с. 42-46. **(Rusiya).**
48. İranda erməni terrorizmi: tarixi faktlar və hazırki şərait // Qafqazşünasların III beynəlxalq forumu, –Bakı: AMEA Qİ, –2022. –s. 168-172.
49. Ethnic and religious self-government (autonomy) of Iranian Armenians // Двенадцатой Международной конференции молодых ученых и специалистов по теме «Новые государства в XX веке» – «Clio-2022», –Moskva, –2022. –с. 238-241**. (Rusiya).**
50. Azerbaycan-İran ve Ermenistan-İran ilişkileri: negatif korelasyondan pozitif korelasyona geçiş olasılığı // Orta Doğu'da Siyasal ve Toplumsal İstikrar VII. Uluslararası Orta Doğu Sempozyumu, –İstanbul: İstanbul Gelişim Universiteti, –2022.

–s. 109-114. **(Türkiyə).**

51. Yaxın Şərqin zorakı qeyri-dövlət aktorları ilə Ermənistan arasında əlaqələr // 5th International congress on life, social, and health sciences in a changing World, –Shoolini University, BZT Academy, 2022. –s. 368-373. **(Türkiyə).**
52. 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə Azərbaycan-İran və Ermənistan-İran əlaqələrində korrelyativ dəyişikliklər // “Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası” mövzusunda V beynəlxalq elmi konfrans, –Bakı: ADU, –2022. –s. 178-179.
53. Diplomatiyada “qırmızı xətt” anlayışı və İranın Cənubi Qafqazdakı qırmızı xətləri // “Şuşa ili”nə həsr olunmuş “Cənubi Qafqazda reallıqlar” mövzusunda respublika elmi konfransı, –Bakı: AMEA Qİ, –2022. –s. 22-23.
54. The attitude of the Gajar Monarchy rising of republican ideas in the South Caucasus and the establishment of nation-states // International Conference “Royalty and Republic: Europe’s Political Establishments in the Early 1920s”, –Alba-İuliya, –2022. –s. 18-19. **(Rumıniya).**
55. Pragmatism in the Caucasus policy of Iran // The 8th International Istanbul scientific research congress, –İstanbul: BZT Akademi, –2022. –s. 296-297. **(Türkiyə).**
56. Rusya-İran ilişkilerinde Güney Kafkasya // IV Uluslararası Palandöken Bilimsel Araştırmalar Kongresi, –Erzurum: İSARC, –2022. –s. 811-812. **(Türkiyə).**
57. Heydər Əliyev və Qafqaz problemləri / M.C.Qasımlı, E.Kəlbizadə, G.Musayeva, S.Həbibbəyli. –Bakı: Azpoliqraf, -2023. -320 s.
58. Ermenistanın türk karşıtı siyaseti ve İran // Radikal ermeni unsurlarca gerçekleştirilen mezalimler ve vandalizm. –Ankara: Terazi yayıncılık, –2023. –s. 77-95.
59. İran İslam Respublikasının xarici siyasət konsepsiyası və nəzəri yanaşmalar // The 13th International Istanbul scientific research congress on humanities and social sciences, –İstanbul: BZT, –2023. –s. 487-492.
60. İranın ermənidilli mətbuatında Şuşa // “İslam mədəniyyətini zənginləşdirən şəhər: Şuşa” mövzusunda beynəlxalq elmi konfrans, –Bakı: Parlaq imzalar, –25 aprel, –2024. –s. 92-96.

61. Ermənistan-İran və Ermənistan-Rusiya münasibətlərində korrelyasiya: müsbətdən mənfiyə doğru // “Cənubi Qafqaz yeni qlobal çağırışlar kontekstində” mövzusunda beynəlxalq konfrans, –Bakı: Azərbaycan Universiteti, –3 may, –2024. –s. 161-163.
62. From geopolitical analysis to cultural diplomacy: the functions of Iranian Caucasology and Armenalogy institutes // “Cənubi Qafqaz tədqiqatları: mövcud vəziyyət, problemlər və perspektivlər” mövzusunda respublika elmi konfransı, –Bakı: Parlaq imzalar, –23 oktyabr, –2024. –s. 17-19.
63. Masoud Pezeshkian and prospective scenarios on development of Iran’s policy in the South Caucasus // “Cənubi Qafqazda dövlətlərarası münasibətlərdə şəxsiyyət amili: tarixdən günümüzə” mövzusunda respublika elmi konfransı, –Bakı: Parlaq imzalar, –06 noyabr, – 2024. –s. 30-32.
64. Energy policy of South Caucasus countries in the post-soviet period // –Prague: Journal of “Sciences of Europe”, –2024. №142, –pp. 55-61. **(Çexiya).**
65. Ermenistan-İran siberişbirliği // “1923’ten 2023’e Türkiye yüzyılında güvenlik perspektifi” konusunda Uluslararası Güvenlik Sempozyumu, –Ankara: JSGA, –08-09 Mayıs, –2024, –s. 102-104. (Həmmüəllif A.Rahimova). **(Türkiyə).**
66. İslamî Şûra Meclisi ermeni milletvekillerinin sözde "ermeni soykırımı"nı tanıtma girişimlerinin İran'ın iç ve dış politikasına etkisi // XIX. Türk Tarih Kongresi, –Ankara: TTK, –3-7 Ekim, 2022, –2024, c. 7, –s. 729-744. **(Türkiyə).**
67. The Qajar Monarchy’s Attitude to the Rise of Republicanism and the Establishment of Nation-States in the South Caucasus // Royalty and Republic in Europe: Political Establishments in the Early 1920s / Edited by S.Arhire, T.Roşu, C.Anghel. –Cambridge: Cambridge Scholars Publishing, –2024. –pp. 245-256. **(Birləşmiş Krallıq).**

Dissertasiyanın müdafiəsi 20 fevral 2025-ci il tarixində saat 11⁰⁰ -da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən Dissertasiya Şurasının bazasında yaradılan BED 2.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74.

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.01.2025

Kağızın formatı: A5

Həcm: 77704

Tiraj: 100